www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  11-12 aprel 2015-ci il  Şənbə  № 76 (6104)  Qiymәti  40 qəpik

**Xəbər**

## Bakıda məhkum qulağını kəsib yedi

yazısı səh.2-də

**Gündəm**

### ATV-də qalmaqallı ixtisarlar



Xoşqədəm Baxşəliyevanın "Səni axtarıram" verilişi də ANS-ə transfer oldu

yazısı səh.3-də

### Manatı gözləyən təhlükə-banklarda "yenidən yüklənmə"...

yazısı səh.11-də

### Bakıda çoxmərtəbəli bina yanıb kül oldu

yazısı səh.2-də

### Pənah Hüseyn "hakimiyyətlə danışıqlara getmək lazımdır" deyibmi...

yazısı səh.4-də

### Hicab məhbusu və daha iki dustaq "krıtı"ya göndərilir

yazısı səh.2-də

### Prezident dərman monopolistlərinə təpindi

yazısı səh.5-də

### "The National İnterest": "Azərbaycan erməni ordusunu darmadağın edəcək"

yazısı səh.12-də

### Sabiq baş nazir Rəhim Hüseynovun açıqlamaları etirazla qarşılandı

yazısı səh.4-də

### Kriminal aləmdə yeni hesablaşma: "Şakro", "Taro", "Lənkəranski"...

yazısı səh.10-da

### "Soyqırım"ın ildönümü ərəfəsi təhlükəsizlik tədbirləri gücləndirilib, ancaq...

yazısı səh.14-də

### Erməni layihəsi - "Comedy Woman" Bakıya niyə gətirilir?

yazısı səh.11-də

## Azərbaycandakı məcburi devalvasiya haqda ilginc iddialar

# "QƏRB AZƏRBAYCANDA "PUL İNQİLABI" HƏYATA KEÇİRMƏK İSTƏYİR"

45 milyard ehtiyatı olan Azərbaycan xaricdəki pullarını ölkəyə niyə gətirə bilmir; ekspertlərdən maraqlı rəylər; Mərkəzi Bank rəhbəri Elman Rüstəmov Avropa dairələri ilə danışıqlar aparır...

yazısı səh.8-də



# Azərbaycan prezidentindən düşmənə sərt xəbərdarlıq

İlham Əliyev bir daha təcavüzkara və vasitəçilərə səsləndi, "işğala, ikili standartlara son qoyun" dedi; Bakının hərbi təlimləri intensivləşdirməsinin gerçək səbəbi; **ABŞ mətbuatı:** "Azərbaycan erməni ordusunu darmadağın edəcək..."

yazısı səh.9-da



*İlham İsmayıl:*

### "Arxivlərin açılması ilə bağlı MTN-də komissiya yaradılmalıdır"

yazısı səh.10-da



### Hacı İbrahim Nehrəmli jurnalistlərlə görüşdü

yazısı səh.5-də



*Vahid Əhmədov:*

### "Vəzifəli şəxslər dedilər ki, sən partiya yarat, maliyyələşdirəcəyik"

yazısı səh.6-da

# 11-12 aprel 2015

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015



# Azay Quliyev ATƏT-in Bakı ofisinin rəhbəri ilə görüşdü

**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında ATƏT-in Bakı ofisinin rəhbəri Aleksiz Şahtahtinski ilə görüş keçirilib. Bu haqda musavat.coma Şuradan məlumat verildi.**

Aleksiz Şahtahtinski təmsil etdiyi qurumun fəaliyyəti və ATƏT-in vətəndaş cəmiyyəti üçün nəzərdə tutulmuş proqramları haqqında ətraflı məlumat verib. ATƏT-in yerli ofisinin rəhbəri Şura ilə bu sahədə əməkdaşlıqda maraqlı olduqlarını deyib və bir sıra təkliflərini səsləndirib.

Şura sədri, millət vəkili Azay Quliyev dövlətin QHT sektorunun inkişafında beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmdən danışıb. Azay Quliyev regionlarda Resurs və Təlim Mərkəzləri şəbəkəsinin genişləndirilməsi, QHT-lərin instusional inkişafı üçün təlimlərin keçirilməsi, təcrübə mübadiləsinin təşkili, "Azərbaycan Respublikasında QHT-lərin vəziyyəti haqqında Milli Hesabat"ın yenilənməsi, vətəndaş cəmiyyəti ilə bağlı ingilis dilində nəşrlərin hazırlanması və digər sahələrdə ATƏT-in yerli ofisi ilə əməkdaşlığa hazır olduqlarını vurğulayıb.

Şura sədri ATƏT-in Bakı ofisinin təqdim etdiyi təkliflərin maraqla qarşıladığını və müzakirələrin davam etdirilməsinin faydalı olduğunu qeyd edib.

# Hicab məhbusu və daha iki dustaq "krıtı"ya göndərilir



**Hicab məhbusu, Cenubnews. com-un baş redaktoru Araz Quliyev "krıtı"ya köçürülür. Musavat.com-un adı çəkilən portala istinadən verdiyi xəbərə görə, onunla bərabər daha iki məhkum 14 saylı həbsxanadan Qobustan qapalı tipli həbsxanaya göndəriləcək**

Xatırladaq ki, 2014-cü il dekabr ayının 22 də məhkum Elşad Babayev sözügedən cəzaçəkmə müəssisəsinin əməkdaşları tərəfindən karserdə öldürüldükdən sonra məhkumlar Babayevin ölümünə görə etiraz aksiyası keçiriblər. Aksiyada türmənin bir neçə əməkdaşını döyülməkdən xilas edən, həmçinin müəssisəyə ziyan vurmağa çalışan məhkumların qarşısını alan, üsyanı sakitləşdirməyə çalışan hicab məhbusları - Araz Quliyev, Anar Qasımlı, Ramil Vəliyev, Rza Ağalı, İlham Hətəmov və ibadət əhli olan digər dustaqlar 14 saylı həbsxananın rəisi Əli İbrahimov tərəfindən işgəncələrə məruz qalıblar.

Belə ki, İbrahimov əvvəl inanclı məhkumlardan Hətəmovu və Ağalını həbsxana daxilindəki karserə saldırıb. Sonra - dekabrın 26-da həbsxanaya xüsusi təyinatlı qüvvələr yeridilərək məhkumlar amansızcasına döyülüblər. Ardınca Araz Quliyev və Anar Qasımlı daxil olmaqla 11 məhkum işgəncə verilmək üçün İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə ("Tubzon") aparılıblar.

Bir müddət orada saxlanılan məhkumlar yenidən 14 saylı türməyə qaytarılıblar. Burada onlar təzədən karsa, Araz Quliyev və Miryusif Əsədov isə "bunker"ə (gözdən uzaq yerin altında) salınıblar. Martın 11-dən sonra karserdə olan məhkumlardan 8 nəfəri cəza kamerasından azad edilib. Lakin Araz Quliyev, Miryusif Əsədov və Natiq adlı məhkumun karser cəzası Əli İbrahimov tərəfindən yenidən artırılıb.

Martın 19-da Ə.İbrahimov adıçəkilən üç məhkuma "bayram hədiyyəsi" edib. Həbsxana daxilində onların məhkəməsi keçirilib və onların Qobustan qapalı tipli həbsxanaya köçürülməsi barədə qərar çıxarılıb.

Onu da əlavə edək ki, Elşad Babayevin ölümünə görə hələ ki, türmənin heç bir əməkdaşı cəzalandırılmayıb.

❑ **Musavat.com**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Bakıda çoxmərtəbəli bina yanıb kül oldu

**Bakıda Nobel prospektində - "Nargilə" kafesinin yaxınlığında yerləşən binalardan birində güclü yanğı baş verib. Musavat.com-un hadisə yerində olan əməkdaşının verdiyi məlumata görə, Bakının Nobel prospektində yerləşən həmin binanı tamamilə alov alib.**



Yanğın uzun müddət davam edib və etrafa zəhərli tüstü yayılıb.

Bir neçə rayonun yanğınsöndürmə briqadaları bunanın söndürülməsinə cəlb olunublar. Yanğının əhatə dairəsi həddindən artıq geniş olduğundan və güclü külək əsdiyindən yanğını söndürmək çətinlik törədib.

Yaşayış binasının sakinləri qısa müddətdə təxliyə olunublar.

Yaxınlıqdakı binaların sakinləri də təşviş içində olublar. Yanğının baş verdiyi əraziyə polis qüvvələri nəzarət edib.

Yanğının baş verməsinin mümkün səbəbi kimi, ilkin ehtimal olaraq, reklam lövhələri göstərilir.

Gecə saatlarında yanığın söndürülüb. İlkin məlumatda bildirilirdi ki, bina tamamilə yansa da, insan tələfatı olmayıb.



# Rauf Mirqədirovun həbs müddəti bir ay uzadılıb

**Bakının Nəsimi rayon məhkəməsi dövlətə xəyanətdə ittiham olunan jurnalist Rauf Mirqədirovun həbs müddətini bir ay uzadıb. Vəkil Elmar Süleymanovun Turan-a verdiyi məlumata görə, Mirqədirovu özü barəsində heç bir istintaq hərəkəti aparılmır və həbs müddətinin uzadılmasına ehtiyac yox idi.**

İstintaq isə həbs müddətinin uzadılmasını təyin edilmiş ekspertizaların nəticələrinin alınması zərurəti ilə izah edir. Lakin vəkil Mirqədirovun işi üzrə istintaqın yekunlaşdığını düşünmür.

Onun sözlərinə görə, 2014-cü ilin sonlarında qanunvericiliyə düzəlişlər ibtidai istintaq zamanı maksimum həbsdə saxlama müddətini 12 aydan 13 aya qədər uzatmağa imkan verib. Bu zaman "müstəsna hallarda" məhkəmə istintaqı 6 ay daha uzada bilər.

Xatırladaq ki, Mirqədirov özü irəli sürülmüş ittihamı rədd edir, onu absurd adlandırır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**



# "Mardan Palace"ın ilk müştərisi məlum oldu

**Banklara olan borcuna görə hərraca çıxarıldığı deyilən azərbaycanlı iş adamı Telman İsmayılova məxsus "Mardan Palace"ın ilk müştərisi məlum olub. "Qafqazinfo" Türkiyə KİV-nə istinadən xəbər verir ki, bu barədə Limak Holdingin idarə heyətinin rəhbəri Nihat Özdemir açıqlama verib. O, satışa çıxarılan dünyanın ən lüks oteli ilə yaxından maraqlandıqlarını etiraf edib. Artıq şirkət bununla bağlı bəzi görüşlər də həyata keçirib.**

Qeyd edək ki, 1976-cı ildə inşaat məqsədi ilə yaradılan şirkətlər qrupu hazırda inşaatla yanaşı, turizm, enerji, hava limanı və liman idarəsi, qida və heyvandarlıq sektorunda da xidmət göstərir.

Xatırladaq ki, Türkiyə mətbuatı iş adamının ümumi borcunun 584 milyon TL-ni keçdiyini yazmışdı. Otelin hərrac üsulu ilə ilk satışı isə Antalya bələdiyyəsinin 4-cü İcra Müdirliyi tərəfindən iyunun 3-də keçiriləcək.

# Bakıda məhkum öz qulağını kəsib yedi

**"Kürdəxanı təcridxanasında məhkumun qulağını kəsiblər". "Turan" agentliyi vəkil Elmar Süleymanova istinadən belə bir məlumat yayıb.**

Xəbərdə bildirilir ki, narkotik maddələrin qanunsuz dövriyyəsində ittiham olunan 33 yaşlı Hünər Cəfərov martın 20-də DİN-in Narkotiklərə Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb, ayın 22-də isə məhkəmə onun işgəncəyə məruz qoyulduğu haqda bəyanatına məhəl qoymadan onu həbs edib.

Aprelin 10-da vəkil Nəsimi Rayon Məhkəməsində isə vəkil Süleymanov məhbusun qulağının bir hissəsinin kəsildiyini görüb.

Bu məlumatı virtualaz.org saytına şərh edən Penitensiar Xidmətin mətbuat xidməti isə məhkuma fiziki təzyiq göstərilməsi və ona işgəncə verilməsi barədə yayılan xəbərləri təkzib etdi.

Məlumata görə, Astara rayon sakini, 1982-ci il təvəllüdlü məhkum, indiyədək üç dəfə həbsxanada yatmış Hünər Abbasəli oğlu Cəfərov narkotik satışına və istifadəsinə görə həbs edilib. H.Cəfərov birinci dəfə fərariliyə, ikinci dəfə isə hərbi hissəni özbaşına tərk etdiyinə görə həbs edilib. Üçüncü dəfə isə narkotik maddə qaçaqmalçılığına görə cəza çəkib. H.Cəfərov dördüncü dəfə də narkotiklə tutulub.

H.Cəfərov barəsində həbs-qətimkan tədbiri seçiləndən sonra apelyasiya şikayəti verib. Amma Apelyasiya Məhkəməsi rayon məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Məhkəmənin bu qərarından narazı qalan H.Cəfərov isə etiraz əlaməti olaraq və istintaqa və məhkəməyə təzyiq göstərmək məqsədilə öz qulağının bir hissəsini alışqanın metal hissəsi ilə kəsib. Lakin o, qulağının bir parçasını yerə atmayıb, böyük Van Qoqdan fərqli olaraq onu nümayişkaranə şəkildə yeyib.

Penitensiar Xidmətin mətbuat xidmətindən onu da əlavə etdilər ki, bu, məhkumların öz etirazlarını belə vəhşi üsullarla bildirməsinə dair ilk belə fakt deyil.

Bundan əvvəl digər məhbus Camal Bayram oğlu Əliyev də bu il fevralın 27-də Biləsuvar müvəqqəti saxlama təcridxanasında öz barmağının bir hissəsini dişləyib qopararaq yemişdi.



# Ramiz Mehdiyev işə çıxır

**Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev işə çıxır. Bu barədə Müsavat.coma məlumat verən hakimiyyətə yaxın mənbənin bildirdiyinə görə, ayrı-ayrı mətbuat orqanlarının yazdıqlarının əksinə olaraq dövlət rəsmisinin səhhətində hər hansı ciddi problem yoxdur və o, gündəlik iş rejimində ənənəvi fəaliyyətini davam etdirir.**

Qeyd edək ki, bir müddətdir rəsmi tədbirlərdə görünməyən PA rəhbərinin xaricdə müalicə olunduğu iddia olunurdu. Lakin mənbəmiz deyir ki, bir neçə ay bundan əvvəl ayağını zədələmiş R.Mehdiyev tam sağalıb və onun səhhətində digər hər hansı problem yoxdur. Şayiələrin ziddinə olaraq Administrasiya rəhbərinin səhhətinin qaydasında olduğu, hətta onun elmi məqalə üzərində işlədiyi də bildirilir. Qeyd edək ki, aprelin 17-də R. Mehdiyevin 77 yaşı tamam olacaq.

❑ **Cavid TURAN**

# Avropa oyunları zamanı bu işlər qadağandır

**Bakıda Avropa Oyunlarının keçirilməsilə əlaqədar nəzarət gücləndiriləcək. "Qafqazinfo" xəbər verir ki, Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi Vaqif Əsədovun anspress-ə verdiyi məlumata görə, iştirakçıların təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün bir çox ərazilərdə avtomobillərin hərəkətinə məhdudiyyət qoyulacaq. Yol polisi bildirib ki, bunun üçün bir çox işlərin gecə saatlarında görülməsi üçün xüsusi tədbirlər həyata keçiriləcək. "Paytaxtın inzibati ərazisindəki 9 məntəqə və lazımı yollar, onlarla kəsişən küçələrdə avtomobillərin hərəkətinə məhdudiyyət qoyulacaq. Bunları nəzərə alaraq, vətəndaşlara Avropa Oyunları zamanı şəxsi avtomobillərindən istifadə etməməyi tövsiyə edirik. Vətəndaşların rahatlığını təmin etmək üçün xüsusi müasir avtobuslar xidmətə buraxılacaq. Onlardan səmərə liistifadə olunmalıdır", - deyə Vaqif Əsədov bildirib.**

Onun sözlərinə görə, həmin dövrdə təmir bərpa işlərinin, kommunal təsərrüfat işlərinin görülməsi ancaq gecə saatlarda reallaşa biləcək. Gündüzlər bu işlərə qadağa qoyulacaq.

"Apteklərə dərman ləvazimatlarının paylanması, ərzaq dükanlarına malların verilməsi də yalnız gecə saatlarında olacaq. Həm dükan sahiblərinə, həm topdansatış mərkəzlərinin rəhbərlərinə, həm də istehsalçılara tapşırılacaq ki, məhsulların daşınmasını yalnız gecə saatlarında həyata keçirsinlər".

Qurum rəsmisi bildirib ki, bir çox şirkətlərə xüsusi tövsiyələr veriləcək: "Özəl şirkətlərin rəhbərlərilə də əlaqə saxlanılacaq ki, mümkün dərəcədə həmin vaxt işçiləri məzuniyyətə, yaxud ezamiyyətə göndərsinlər. Yük daşınması ilə məşğul olanlar da, çalışıb işlərini həmin günlərə qədər yekunlaşdırsınlar. Əslində bizim beynəlxalq tədbir keçirmək təcrübəmiz var. İnanıram ki, bu dəfəki tədbirdə də, üzümüz ağ olacaq".




# Mistikanın xoşbəxtliyimizə maneçiliyi

**Barselonadan Düsseldorfa uçan təyyarənin Fransa ərazisində Alp dağlarına çırpılması haqda dəhşətli xəbəri televizordan eşitməmişdən bir az əvvəl bir məhbusla elə aviaqəzalar haqqında danışırdıq. O, bundan əvvəl baş vermiş hansısa aviaqəza zamanı salamat qalmış bir sərnişinin taleyindən danışırdı. Məlum olurdu ki, həmin sərnişin bilet aldığı reysə çatmaq üçün aeroporta tələsdiyi zaman yolda avtoqəzaya düşür. Bu qəzada iki nəfər həlak olsa da o, yüngül xəsarətlərlə qurtulur. Amma reysə gecikir. Sonradan məlum olur ki, həmin reyslə uçan təyyarə qəzaya uğrayıb və bütün sərnişinlər həlak olublar. Məhbus yoldaşım bunu hansısa mistik qüvvənin özünü təyyarəyə çatdıra bilməmiş sərnişini xilasetmə əməliyyatı kimi təqdim edirdi. İzah etməyə çalışdım ki, bu, sadəcə olaraq bir təsadüfdür və onun dediyi həmin o mistik qüvvə dediyi kimi mərhəmətli və ədalətlidirsə, heç təyyarənin qəzaya düşməsinə imkan verməməli idi, bəd ayaqda xilas etmək istədiyi yeganə sərnişini daha normal üsulla təyyarəyə gecikdirməli idi. Təbii ki, o, mənim dediklərimi qəbul etmirdi və hər şeyi mistik qüvvənin iradəsinə bağlayırdı. Biz bu haqda danışarkən yadıma düşdü ki, bir dəfə bir müsavatçı dostumla ta Tovuzdan Bakıyacan mübahisə etmişdik.**

Hər il Yer üzündə yüz milyonlarla insan ölür. Əlbəttə ki, bu yüz milyonların içində çox qəribə, heyrətamiz və insanları düşündürməyə məcbur edən əlamətlərlə baş verən ölümlər də olur. Məsələn, yüz milyonlarla ölümün içində doğulduğu gün ölmək, ərlə arvadın eyni gündə dünyalarını dəyişmələri, dünyanın müxtəlif bölgəsində yaşayan iki qardaşın eyni gündə ölməsi, adamın toy günündə və ya 15 ildən sonra həbsxanadan çıxdığı gün ölməsində heç bir mistika yoxdur. Yenə deyirəm, söhbət əgər yüz milyonlardan gedirsə, tək-tük belə hadisələr çox normal qarşılanmalıdır. Qayıdıram yenə də adamların bilet atdıqları qatar, gəmi, təyyarə və avtobus reyslərindən qalmaqalla baş vermiş qəzadan qurtulmalarında mistik qüvvənin roluna. Bəri başdan qətiyyətlə bildirim ki, bu işdə heç bir mistika yoxdur. Məsələni belə izah edirəm: adi halda sərnişinlərin əvvəlcədən bilet aldıqları qatara, gəmiyə, təyyarəyə və avtobusa gecikmələrində qəribə bir şey görmürük. Məsələn, hər gün yola çıxan Bakı-Moskva qatarının yüzlərlə əlibiletli sərnişinlərindən birini və ya bir neçəsinin hansı səbəbdənsə qatara minə bilməməsi çox adi işdir. Belə hal hər gün baş verir. Nə qədər ki, texnika var, texnogen qəzalar qaçılmazdır. Mən hələ terrorçu amilini də bura aid edirəm. Uzaq olsun, əgər günlərin birində Bakı-Moskva qatarında bir faciə baş versə, çox güman ki, bayaq qeyd etdiyim qisim insanlardan kimsə həmin qatarda olmayacaq və beləliklə, salamat qalacaq. Sonra da özü də daxil olmaqla, bütün tanış-biliş onu hansısa mistik qüvvənin xilas etdiyini danışacaq. Özü də ürəkdən bu cəfəngiyata inana-inana.

Təsəvvür edin ki, moskvalı quldurlar daldey bir yerdə qadının boğazına bıçaq dirəyib pullarını tələb edirlər. Dil-dodağı təpmiş qadın nitqi tutulmuş halda əlləri əsə-əsə çantasını açır. Görəndə ki, səhər ora qoyduğu on min manatı yoxdur "Vaay, evim yıxıldı, pullarımı götürüblər" deyib qiyyə çəkir. Guya ki, o pullar yerində olsaydı nə olacaqdı ki, onsuz da onlar bu quldurlara qismət olacaqdı da, ağlamağın, qışqırmağın nə mənası. Bəzən olur ki, ölümdən qurtuluş da indi dediyim qadının qorxusu kimi mənasız olur. Elə müsavatçı dostumla Tovuzdan Bakıya qədər bu məsələnin mübahisəsini etmişdik. Yolda dəhşətli qəza baş vermişdi. Avtoqəza nəticəsində cavan gəlinin əri və iki oğlu ölmüşdülər, özü isə tanınmaz hala gəlmiş maşından salamat çıxmışdı. Müsavatçı dostum israr edirdi ki, həmin gəlini mistik qüvvə xilas edib. Mən bu avtoqəzanı fizikanın qanunlarına uyğun bir hadisə olduğunu deyirdim. Deyirdim ki, əgər, sən dediyin mistik qüvvənin burada hər hansı rolu varsa qadını xilas etməyib, əksinə, onu faciəyə düçar edib. O qadın məmnuniyyətlə əzizləri ilə birlikdə ölmək istəyərdi. əgər mistik qüvvənin bu qadına xüsusi bir simpatiyası və mərhəməti varıydısa onun əzizlərini də xilas edərdi.

**Bunları niyə yazdım? Həmin müsavatçı dostum da daxil olmaqla çoxları belə düşünür ki, Azərbaycanda demokratik cəmiyyəti qurmaq ona görə mümkün olmur ki, xalq mistik qüvvənin qayda-qanunlarına əməl etmir, əvəzində o da bizi belə antikalı rejimlə cəzalandırır.**

❑ **Tofiq YAQUBLU**

# ATV-də qalmaqallı ixtisarlar

## Xoşqədəm Baxşəliyevanın "Səni axtarıram" verilişi də ANS-ə transfer oldu

**Aprelin 10-da ATV kanalından kütləvi ixtisarlar olması barədə media orqanlarında məlumat yayıldı. Kanaldakı mənbədən azxeber.com-a verilən məlumata görə, kanal rəhbərliyinin göstərişi ilə yüzə yaxın işçi işdən çıxarılıb. Maraqlı olan məqam isə işdən çıxarılanların böyük əksəriyyətinin xanım işçilər olmasıdır. Kütləvi ixtisarlar daha çox kanalın xəbərlər və ictimai-siyasi verilişlərində çalışan jurnalistlərə şamil edilib. Və kanal rəhbərliyi bunu kanalın ən çox şou xarakterli verilişlərdən gəlir əldə etməsi ilə əlaqələndirib.**

Mənbənin sözlərinə görə, işdən çıxarılan jurnalistlər kadrlar şöbəsinə çağırılaraq təkidlə ərizə yazmalı olduqları deyilib. İşdən çıxarılanların bir çoxu əmək məcəlləsinin kobud şəkildə pozulması iddiası ilə ərizə yazmaqdan imtina ediblər.

Bununla yanaşı kanalın İstanbul və Moskva nümayəndəliyi ləğv edilib və oradakı müxbirlərin işinə xitam verilib.

Xatırladaq ki, ötən gün AZTV-də kütləvi ixtisarlar başlamışdı. Dövlət televiziyasında da jurnalistlərlə yanaşı kanalda vəzifə tutan bəzi şəxslər işlərindən uzaqlaşdırılmışdı.

Amma xəbərin yayılmasının ardınca kanalın Xəbərlər Departamentinin Baş redaktoru Vaqif Aydınoğlunun adından yayılan açıqlamada bildirildi ki, heç bir əsası yoxdur.

**Amma günün irəliləyən saatlarında Xoşqədəm Hidayətqızının "Səni axtarıram" verilişi bundan sonra ATV-də deyil, ANS-də yayımlanacağı ilə bağlı xəbər də mediada yer aldı.**




Azad Azərbaycan Telekanalının (ATV) Xəbərlər Departamentinin baş redaktoru Vaqif Aydınoğlu Publika.az ttp://publika.az/-a açıqlamasında xəbəri təkzib etməyib. Əksinə, o, məsələ ilə bağlı ayrıntılı məlumatı Xoşqədəm Hidayətqızının özünün verəcəyini bildirib. Onun sözlərinə görə, rəhbərliklə Xoşqədəm Hidayətqızı arasında razılaşma belədir: "Xoşqədəm Hidayətqızı ATV-dən getməsi ilə bağlı yayılan xəbərlərə özü açıqlama verəcək və bütün detalları izah edəcək".

ANS telekanalının mətbuat müşaviri Mayıs Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Bakıya aprelin 10-da gəldiyi üçün sözügedən olayla bağlı məlumatlı olmadığını bildirib.

ANS şirkətlər qrupunun vitse-przidenti Mirşahin Ağayev məsələylə bağlı modern.az-a Xoşqədəm Hidayətqızının özü ilə əlaqə saxlamağı tövsiyə edib:"İlk növbədə Xoşqədəm xanımın özüylə əlaqə saxlayın. Mənim onun iş yerini dəyişməsi barədə hər hansı açıqlama verməyim düzgün deyil axı. Bəlkə o özü bunun üçün xüsusi tədbir keçirəcək, daha geniş açıqlama verəcək".

Xoşqədəm Hidayətqızı ilə əlaqə saxlamağın mümkün olmadığını bildirəndə Mirşahin Ağayev günün sonuna qədər gözləməyi məsləhət gördü: "İndi telefonu açmırsa, günün sonunu gözləyin. Yəqin açıqlaması olacaq".

Əməkdaşımız günün sonuna qədər bir neçə dəfə X.Hidayətqızı ilə əlaqə saxlamağa çalışsa da, buna nail olmayıb.

Mediada dolaşan söz-söhbətlərdə isə bildirilir ki, X.Hidayətqızının ATV-dən ayrılması öz istəyi ilə baş tutub. Səbəb isə son zamanlar Zaur Baxşəliyevin aparıcısı olduğu "Öz aramızda" adlı verilişində itkin düşən insanları axtarması, yəni "Səni axtarıram"ın formatına girməsidir. Bu isə X.Hidayətqızında və onun komandasında ciddi narazılıq yaradıb.

**Bütün hallarda indi kanal dəyişmələri, transferlər adi media hadisəsidir. Sadəcə bununla bağlı verilişin aparıcısı tərəfindən yekun açıqlamanın verilməsi bütün versiya və şayiələrə son qoya bilər.**

❑ **Sevinc TELMANQIZI**

**O gün türkiyəli qəzetçilərdən biri məşhur televizyonçu Acun İlicalının işlətdiyi TV-8 kanalına qarşı müsibət bir yazı yazmış, baltanı dibindən vurmuşdu. Hətta buna balta da demək olmaz, yazı ballistik raket zərbəsi kimi bir şey idi. Müəllifin yazısının başlığı beləydi: "Acun İlicalı bir millət üçün atom bombasından daha təhlükəlidir".**

**Niyə, nə oldu ki, özü özünü böyüdüb milyonçu və türkün sözü, başarılı adam etmiş bir ərzurumlu yetim oğlan atom bombasından daha təhlükəli oldu?**

**Samir SARI**



# Xalq şou istəyir, amma yaxşısını

Müəllifin fikrincə, onun milyonlarla tamaşaçı auditoriyası toplayan verilişləri milləti uyudur, gündəlik qayğılardan, problemlərdən yayındırır, insanlar oturub gələcəklərini düşünmək əvəzinə maraqlı şou verilişləri ilə başlarını qatırlar və sair və ilaxır.

Müəllif bu məsələdə haqlıdır ki, TV-8-də ictimai-siyasi verilişlər, xəbərlər bülleteni-filan yoxdur, eyzən "Yetənək sizsiniz", "O səs Türkiyə", "Survivor", "İştə mənim stilim" kimi şou verilişləri və seriallar verir. Adam siyasətə qarışmaq istəmir, 5 lirəlik çəkələyini, 15 lirəlik şortikini, 10 lirəlik tişortunu geyir, 20 milyonluq şəxsi təyyarəsinə, 3 milyonluq yaxtasına minib işinin-gücünün dalınca, şou yaratmağa gedir.

Türkiyədə isə, oturub saymamışam, amma 400-dən çox telekanal var, 15-20-si çox populyardır, amma artıq hamısı TV-8-ə uduzur. İlyarım bundan əvvəl bu telekanalı adını bilən yox idi, amma artıq bu telekanal nəinki Türkiyənin, hətta regionun ən çox baxılan telekanalıdır. Bunun da əsas səbəbkarı Acun əfəndidir. Adam özünü də, verilişlərini də, telekanalını da sevdirməyi bacarır.

Bəs doğrudanmı o, atom bombasından daha təhlükəlidir? O vaxt belə olardı ki, Türkiyədə yeganə telekanal TV-8 olaydı, o da gün axşamacan bu cür şou verilişləri verəydi. Amma yuxarıda ərz elədiyimiz kimi, qardaş ölkədə 400-dən artıq telekanal fəaliyyət göstərir və hamısı da hər şeyi göstərir. İndi Acun bəy neynəsin ki, xalq şou istəyir. Məsələn, mənə FOX TV-nin xəbərlər bülleteni çox xoş gəlir, dəqiq, vicdanlı, qərəzsiz, həm də operativ telekanaldır, hər zaman həqiqəti söyləyir, ən azı buna çalışır.

Dərd bizim dərdimizdir, 5-6 dənə telekanalımız var, onlar da hər gün eyni manısları müxtəlif verilişlərə çağırır, xalqa əyləncə bəxş etmək istəyirlər və dənəsini belə üfürüb ağzına ata bilərmiş.

Keşkə, bizdə də elə realiti şoular olaydı. Amma hardan olsun, buna istedad, məharət, ədalət, kreativ düşüncə, yaradıcılıq lazımdır. Meyxanaçıları min dəfə deyilmiş qafiyələrlə bir-birinə qırdırmağa, manısların toy tutmaq qayğılarından, maşınlarından danışmağa, deyilənə görə, şitlik baş alıb gedir.

Yəni bizim alternativ xəbər almaq, maraqlı verilişlər, aktual mövzularda gerçək tok-şoular izləmək imkanımız yoxdur. Heç olmasa TV-8-dəki şouların yarısı qədər bir şey təqdim edə biləydilər, o da yoxdur.

Ona görə də bizim tamaşaçılar da dadanıb TV-8-ə baxırlar. Həm də kütləvi şəkildə.

Düzünü deyim ki, mən özüm də "Survivor" tamaşaçısıyam. İnsanların uzaq bir adada həyatda qalmaq, birinci olmaq, bir qarın yemək əldə etmək uğrunda mücadilə verməlerini, müxtəlif durumlarda psixoloji ovqatlarını, davranışlarını izləmək mənə maraqlı gəlir. O verilişə baxa-baxa fikirləşirəm ki, bax, insan budur, dünən qürurlu milyonçu olan adam ac qalanda yerə, torpağın içinə düşən sonuncu düyü dənəsini belə üfürüb ağzına ata bilərmiş.

SMS dilənçiliyi etməyə xüsusi istedad lazım deyil.

"Nəzər nöqtəsi"nin populyar vaxtlarında o biri telekanallarda da buna bənzər verilişlər vardı. Siyasi mövqeyinə çox da fikir verməden, istedadlı, parlaq insanları çağırıb aktual mövzularda müzakirə-filan aparırdılar. Sonradan yuxarıdan göstəriş verildi ki, hamı şoudan və idmandan bəhs eləsin, heç kəs siyasətə girməsin.

Artıq neçə illərdir belədir. Nəticədə Azərbaycanın telemekanı geniş tamaşaçı auditoriyası itirdi. Düzdür, hələ də milli telekanallarınızın bayağı verilişlərinə baxanlar var, amma gündən-günə azalırlar. Bu gedişlə gün gələcək, bizimkilər özləri göstərib, özləri baxacaqlar.

Əslində isə əsl "Survivor" bizim həyatımızdır, sadəcə, bunu çəkib göstərən yoxdur.

Yeni Müsavat
N 76 (6104) 11 aprel 2015



# Kardaşyanın ümidinə qalan ermənilər

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Erməni mənşəli amerikalı porno-ulduz Kim Kardaşyan Ermənistana gəlib. Xəbərin özəlliyi ondadır ki, irəvanlılar onu az qala kraliça, başlarının tacı kimi, duz-çörəklə qarşılayıblar. Uşaqdan böyüyə, qadından kişiyə, hamı onu canlı görməyə, əl verib görüşməyə, avtoqraf almağa can atır. Halbuki, xanım hansı qabiliyyəti hesabına məşhuri-cahandır, bilməyən yoxdur.**

Əslində təəccüblənməli bir şey yox. Dünya binə olandan ermənilər ilk növbədə “qədim peşə”nin sirlərini dərindən mənimsəmək hesabına öz varlıqlarını qoruyub saxlayıb, böyük və hakim millətlərin qəlbinə, şah, padşah, çar saraylarına yol tapıb, fürsət düşəndə isə onlara çörək və yer vermiş xalqlara xəyanət edib, qənim kəsilib, arxadan zərbə vurublar.

Bu mənada Kim Kardaşyan müasir erməni kimliyinin və xarakterinin parlaq simvolu, brendi sayıla bilər. Odur ki, təkrar edirik, onun olduqca sıcaq qarşılanması, hətta baş nazir Ovik Abramyan tərəfindən qəbul edilməsi təbiidir, məntiqlidir, normaldır. Yəqin ki, prezident Serj Sərkisyan da Kimə eyni lütfkarlığı göstərəcək, erməni xanımlarının kumirini çox intizarda qoymayacaq...

Sadəcə, bir şey qanqaraldıcıdır ki, Kardaşyanın soyadında türk sözü var. Və bunu vaxtilə özü də açıq şəkildə etiraf edib ki, erməni soyadlarının (musiqisinin, mətbəxinin - Z.S.) mühüm bir hissəsi türk kökənlidir, yəni oğurluqdur. Di gəl, bu, türklərə qarşı kin və ədavəti davam etdirməyə, saxta soyqırım təbliğatı aparmağa ona, ermənilərə mane olmur (Elə ona görə də ermənidirlər!..)

İşğalçı ölkədə bir porno-ulduzun ali, hətta rəsmi qarşılanmasının ikinci səbəbi də budur. Sən demə, Kim Kardaşyan saxta “genosid”in dünyada tanıdılması yönündə ciddi səylər göstərirmiş. Belə çıxır, ermənilər uydurma məsələdə faktiki surətdə porno-ulduzların ümidinə qalıblar ki, Kardaşyan kimilərə bunca dəyər verir, onları başda oturdur, yüksək səviyyədə qəbul edirlər. Qısası, su-çuxur məsələsi...

***

Belə yerdə hətta ermənilərin rusiyalı qatı lobbisti Aleksey Martınovun da dözməyib Kardaşyanın Ermənistanda təntənəli qarşılanması ilə bağlı öz facebook səhifəsində yazdığı sərt statusu necə təkrar yazmayasan. Ulduzun son “ətli-şirəli” fotolarından birini səhifəsində yerləşdirən ermənifil görün, şəklin altında hansı qeydi edib. Sitat: “Əgər ermənilər əvvəllər özlərinin marşalları və alimləri ilə, yazıçıları və rejissorları ilə, artistləri və şairləri ilə fəxr edirdilərsə, indi silikon g... ilə fəxr edirlər” (üzr istəyirik).

Görəsən niyə?

Əsas səbəbi “əzabkeş xalq”ın özündə, onun ictimai şüurunda, psixikasında xüsusən də son on illiklərdə, “Miatsum” sindromunun təsiri altında baş vermiş dərin deqradasiyalarda, maniakal dəyişikliklərdə axtarmaq lazım gəlir.

Diqqət edin, 100 ildir dünyanı uydurma “erməni soyqırımı”na inandıra bilməyən qonşu xalq Xocalıda, Azərbaycanın digər ərazilərində azərbaycanlılara qarşı gerçək soyqırım aktları törədib, etnik təmizlənmələr həyata keçirib. Amma bəşəriyyət əleyhinə olan bu cinayətlərə görə tükü belə tərpənmir, əsla vicdan əzabı çəkmir, əksinə, bu əməllərinə haqq qazandırır, işğalı “haqq işi” sayır. Ancaq özünün 100 il öncə Osmanlı dövlətinə xəyanəti nəticəsində yaşadığı haqlı ağrı-acıları isə türklərə bağışlaya bilmir.

Bağışlaya bilməyən, yalnız keçmişində ilişib qalan, keçmişi ilə yaşayan millətlər isə böyük ola bilməz, ümidləri elə Kardaşyan kimi porno-ulduzlara bağlı qalar...

**“Azadlıq - 2015" seçki blokunun ”Dəyişən dünya və Azərbaycan. Mövcud durum və perspektivlər" mövzusunda təşkil etdiyi Dəyirmi Masada Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin çıxışında səsləndirdiyi fikirlər mediada və sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Yanaşmalar birmənalı deyil.**

# Pənah Hüseyn “hakimiyyətlə danışıqlara getmək lazımdır” deyibmi?



## **AXP sədri geniş rezonans doğuran açıqlamasına aydınlıq gətirdi:** “Konseptual baxımdan bunlar avtoritarizmdən demokratiyaya yumşaq keçid strategiyası ilə şərtlənir”

Dəstək verənlər və tənqid edənlər, hətta pisləyənlər var. Bunları nəzərə alıb müxtəlif informasiyalarda onun adından gedən, “Hakimiyyətlə danışığa getmək lazımdır”, “geniş siyasi koalisiya”, “milli konsensus parlamenti”, “dialoq yox birbaşa siyasi danışıqlar” kimi məsələlərə aydınlıq gətirməsini istədik.

**Pənah Hüseyn aşağıdakıları bildirdi:** “ Bu fikirlər bir çıxışın kontekstində səsləndirilib və odur ki, bu kontekstdən ayrıca götürülüb təqdim olunduqda mənа və məzmun dəyişikli danışıq, saziş və razılaşmaları nəinki inkar edir, əksinə, zəruri olaraq nəzərdə tutur. Lakin deyilən çıxışdan, bəzən də redaktələrlə təhrif edərək dərc edilən alıntılar abstrakt - nəzəri metodologiya ilə deyil konkret siyasi situasiya ilə əlaqədə səsləndirilib. Mövcud durum qeosiyasi, sosial- iqtisadi, ictimai- siyasi və müxalifətdaxili sahələrdə ketdikcə dərinləşən sistem böhranı kimi dəyərləndirərək belə vəziyyətdən çıxış mexanizmi kimi milli konsensus parlamentinin formalaşdırılması mücərrəddir. Həm də açığı xeyli aşınıb. Faktiki olaraq biz dialoq mühitinin yaradılmaı addımlarından dialoqa keçə bilmədk. və artıq məsələn, seçki, milli konsensus parlamenti formalaşdırılması kimi məsələlərdə ən azı zamanın daralması baxımından dialoq aktuallığını itirib. Bu xətti birbaşa siyasi danışıqlar canlandıra bilər. Onu da deyim ki, hakimiyyətlə danışıqlar və razılaşmalar yolu ilə parlament formalaşdırılması təyinatlı parlament kimi başa düşülməməlidir. Aydınlıq

yinə səbəb ola bilər. Mənim təkliflərimin fundamental fikir dəyişikliyi kimi dəyərləndirilməsi də doğru deyil. Konseptual baxımdan bunlar avtoritarizmdən demokratiyaya yumşaq keçid strategiyası ilə şərtlənir. Məlumdur ki, bu inkişaf yolu müxalifət subyekt kimi iştirak edirsə real hakimiyyətlə və konkret bu məsələ ətrafında iqtidarla danışıqlar aparılmasını, siyasi saziş, razılıq əldə edilməsi kmi məsələlərə diqqəti cəlb etmişəm. İfadə forması kimi qüsurlu görünsə də mən həmin çıxışda hakimiyyətlə danışıqlar ideyasını dialoqa antitezis kimi qoymuşam. Çünki dialoq anlayışı konktret deyil, üçün müqayisə edim. Məsələn, müxalifət daxilində ayrı-ayrı dairələrin razılaşdırılması azad, ədalətli seçkilərin inkarı olmadığı kimi bu tipli razılıq hakim partiya və müxalifət qüvvələri arasında da danışıqların predmeti niyə ola bilməz? Sonda yenə qəti hökmü seçici verir. Konsensus paritet demək deyil. Məncə siyasi proseslərə bugünkü təsir və cəmiyyətdə malik olduğu etimad çəkisinə uyğun konsensus nisbət ölçülərini də tapmaq mümkündür. Deyilənlər reallaşarsa faktiki olaraq siyasi qütblərlə ayrılmayan yeni tipli koalisiya yaranmış olur ki, bu da keçid dövrü üçün mövcud olub rolunu oynayar. Aydındır ki, prosesin getməsi yalnız müxalifətdən yox, başlıca olaraq hakim siyasi iradədən asılıdır ”

# Rəhim Hüseynovun açıqlamaları etirazla qarşılandı

## Pənah Hüseyn sələfini cəfəngiyyat danışmaqda ittiham etdi



Rəhim Hüseynov

**Sabiq baş nazir Rəhim Hüseynov moderator.az saytına müsahibəsində baş nazir təyinatı və Əbülfəz Elçibəy hakimiyyəti ilə necə işlədiyi, postundan getməsi ilə bağlı açıqlamalar verib.**

1992-1993-cü illərdə baş nazir işlədiyini xatırladan R.Hüseynov deyib ki, baş nazir olarkən Xalq Cəbhəsi hakimiyyətə gəlib və onlarla işləmək istəmədiyi üçün vəzifədən gedib: “Məni Milli Məclisdə-o vaxt Milli Şura idi-baş nazir postuna gətirdilər. Amma üstündən bir az keçmiş Ayaz Mütəllibov istefa verib getdi, qaldım cəbhəçilərin əlində. Baxmayaraq ki, özləri məni baş nazir kimi təsdiq etdilər, amma işləməyə imkan vermədilər. Gördüm ki, addımbaşı işimə qarışırlar, özbaşına qərarlar verirlər, bu cür xaosla işləyə bilməzdim. Çünki mən başqa cür, yəni dəmir qayda-qanunla işləmişəm həmişə. Elə rəhmətlik Heydər Əliyevin özüylə 16 il işləmişəm. Heydər Əliyevlə dünyanın bir çox ölkəsində birgə səfərlərdə olmuşuq. Nə isə bir gün zəng elədim Elçibəyə. Dedim ki, siz özünüzə baş nazir tapın, mən sabahdan işə çıxmayacam. Onunla çox sərt danışdım ki, mənə işimə qarışmayacağınızla bağlı söz vermişdiniz, amma sözünüzə naxələf çıxdınız. Deməyim odur ki, məni AXC iqtidarı təzədən baş nazir qoyanda Elçibəyin qarşısında şərt qoymuşdum ki, iqtisadiyyat məsələsinə qarışmayacaqsınız, siz öz siyasətinizi aparın, mən siyasətçi deyiləm. Xülasə, ona sözümü dedim və səhərisi işə çıxmadım. 3 ay bunlar mənə yalvardılar ki, qayıt işinə, dedim qayıtmaram”.

**Elçibəy iqtidarı zamanında dövlət katibi və baş nazir vəzifələrində işləmiş Pənah Hüseyn “Yeni Müsavat”a bildirib ki, Rəhim Hüseynovun dedikləri həqiqəti əks etdirmir:** “Rəhim Hüseynov yaşlı adamdır. Bizim xalqda da yaşlı adamlara onun kimliyindən asılı olmayaraq bir hörmət var. Bəziləri yaşlandıqca müdrikləşir, dilinə yalan gətirmir, bəzilərində isə başqa vəziyyətlər yaranır və yaxud elə əvvəldən olan şeylər üzə çıxır. Ona görə də Rəhim Hüseynovun da son dövrlər belə xatirələri meydana çıxır. Amma tarixi faktları dəyişmək də mümkün deyil. Rəhim Hüseynov baş nazir vəzifəsinə 1992-ci il mayın 14-də konstitusiya çevrilişi həyata keçirilən gün Ayaz Mütəllibov tərəfindən irəli sürülmüşdü. Yəni onun Milli Şura tərəfindən baş nazir gətirilməsi barədə dedikləri faktlara uyğun deyil. Ayaz Mütəllibov mayın 15-də getdikdən sonra Yaqub Məmmədov da Ali Sovetin sədri vəzifəsindən istefa verdi. Ali Sovetin sədri İsa Qəmbər seçildi. İsa Qəmbər həm də prezidentin səlahiyyətini icra edirdi. Rəhim Hüseynov isə Mütəllibov getdikdən sonra istefa vermədi və qalıb işlədi. Ona heç kim təzyiq etmirdi və işini aparmasına mane olmurdu. Əbülfəz Elçibəy prezident seçildikdən sonra da Rəhim Hüseynova heç bir təzyiq yox idi. Mən dövlət katibi idim və Rəhim Hüseynova Prezident Aparatından heç bir təzyiq edilmirdi. Hansısa tapşırıqların verilməsini isə işə qarışmaq, təzyiq kimi təqdim etmək yanlışdır. Baş nazirə prezidentdən kənarda kimlərinsə göstəriş verməsi mümkün deyildi. Mən dövlət katibi olaraq baş nazirlə, onun müavinləri ilə əlaqə saxlayırdım. Heç bir təzyiqdən söhbət gedə bilməzdi. Rəhim Hüseynov tamamilə başqa formasiyanın adamı idi. Ola bilər ki, o dövrdə proseslərdə müəyyən diskomfort yaşasın”.

**P.Hüseyn onu da dedi ki, o dövrdə Rəhim Hüseynov tərəfindən hər hansı etiraz, narazılıq ifadə olunmayıb:** “Onun guya işə gəlmədiyi və hakimiyyətin də ona üç ay yalvardığı haqda dedikləri də qətiyyən doğru deyil. Rəhim Hüseynovun vəzifədən kənarlaşdırılması konkret məsələlərlə bağlı olub. Həmin məsələlərə görə də ona təklif olunmuşdu ki, istefa versin. Başqa tədbirlər də görülə bilərdi, prokurorluğa aid olan məsələlər mövcud idi. Lakin prezident razılıq vermədi. Rəhim Hüseynov da istefa vermişdi. Guya ona üç ay xahişlər olunması barədə dedikləri cəfəngiyatdır. Təəssüf ki, hətta vaxtı ilə Rəhim Hüseynovla mənim aramda bu tipli məsələlərlə əlaqədar bir məhkəmə çəkişməsi də olmuşdu. Onun bu cür məsələlərlə bağlı bir məqaləsi dərc olunmuşdu. Mən məcbur olub onu məhkəməyə vermiş və dediklərini təkzib elətdirmişdim. Təkzib məktubu hələ də qalır”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015





# Hacı İbrahim Nehrəmli jurnalistlərlə görüşüb

## Aparıcı KİV rəhbərlər "Xəzər Adaları"nda olublar

**Avesta Konsernin prezidenti, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli Azərbaycanda fəaliyyət göstərən aparıcı kütləvi informasiya vasitələri (KİV) rəhbərləri və nümayəndələri ilə görüşüb.**

"Khazar İslands" ("Xəzər Adaları") şəhər-kompleksinin ərazisində baş tutan görüş zamanı çıxış edən **iş adamı Hacı İbrahim Nehrəmli** KİV nümayəndələrinə Xəzər dənizi sahilində inşa olunan möhtəşəm layihə haqqında geniş məlumat verərək bildirib ki, "Xəzər Adaları" ümumilikdə 78 süni adadan ibarət olacaq ki, hal-hazırda onlardan beşi yaradılıb, birində binalar inşa olunur. Bu günə kimi layihənin həyata keçirilməsinə 1 milyard 157 milyon dollar vəsait xərcləndiyini bildirən iş adamı bu vəsaitin cəmi 57 milyon dollarının Azərbaycan Beynəlxalq Bankının verdiyi kredit olduğunu, qalan məbləğin isə özünün şəxsi vəsaiti olduğunu bəyan edib.

**İbrahim Nehrəmli qeyd edib ki, "Xəzər Adaları"nda salınan şəhərin birinci mərhələsini başa çatdırmaq üçün əlavə 2 milyard dollara ehtiyac var:** "Əgər 2 milyard dollar da olarsa, ən geci 2020-ci ilədək birinci mərhələdə nəzərdə tutulan tikinti işləri başa çatacaq. Birinci adadakı mənzillərin və obyektlərin satışından 7-10 milyard dollar gəlir əldə ediləcəyi gözlənilir. Birinci adanın satışından əldə olunan gəlir ilə növbəti adalar tikiləcək. Bu isə o deməkdir ki, "Xəzər Adaları"nda işləri davam etdirmək və tamamlamaq üçün cəmi 2 milyard dollara ehtiyacı var".





Ümumilikdə layihənin 100 milyard dollara başa gələcəyini bildirən Hacı İbrahim Nehrəmli bu vəsaitin bir dəfəyə deyil, mərhələli şəkildə, bir adadan qazanılan pulun növbəti adanın tikintisinə sərf edilməsi ilə işlərin davam etdirilməsinin nəzərdə tutulduğunu söyləyib. Avesta Konsernin prezidenti deyib ki, hazırda tikinti işləri aparılan birinci adada gələn ildən yaşayışa başlanılacaq: "Hazırda binaların fasadının şüşələnməsi işləri aparılır. Gələn il birinci adada 6-7 min nəfər yaşaya biləcək. Birinci adada hazırda tikilən binalardan başqa tikiləcək digər binaların 50 faizinin özülü qoyulub. Hazırda tikilməkdə olan binalar başa çatdıqdan sonra özülü qoyulan binaların tikintisi başlayacaq. Birinci adada gələcəkdə 60 min insanın yaşaması nəzərdə tutulub".

**Hacı İbrahim Nehrəmli nəyin bahasına olursa-olsun layihəni tikib başa çatdıracağını bəyan edib və binalar ucaldıqca layihəyə inamın artdığını deyib:** "Hələ də bəzi insanlarda inamsızlıq və qısqanclıq var. İndiyə qədər çoxları bu şəhərin tikəcəyimə inanmırdılar. Lakin bu gün dənizdə həyata keçirilən işləri görənlər fikirlərini dəyişirlər. Digər tərəfdən isə hamı anlamalıdır ki, Hacı İbrahim özünə villa tikmir. Bu, yeni bir şəhərdir və vətənimizdə qalacaq. Mən də milyardımı götürüb Türkiyəyə gedib otellər alıb yaşaya bilərdim. Amma mən bunu etmədim. Hər zaman da düşünmüşəm ki, Azərbaycan dövləti üçün çalışıb, iz qoyub gedəcəm. Biz iş adamları hər zaman dövlətin və dövlət başçısının həyata keçirdiyi siyasətin yanında olmalıyıq".

**Hacı İbrahim yerli iş adamlarını çəkinmədən "Xəzər Adaları"na sərmayə yatırmağa çağırıb:** "Bizim bəzi iş adamları əllərində olan pulu aparıb Türkiyədə, Birləşmiş Ərəb Əmirliklərində və başqa dövlətlərə yatırırlar. Arzu edərdik ki, onlar da öz vəsaitlərinin bir hissəsini bu layihəyə yatırsınlar. Biz burada 50 faiz qazanc olacağına zəmanət veririk. Biz Bakı şəhərində də bina tikirik, amma bu qədər qazanmırıq".

**Şəhərdəki binalardan mənzillərin satışına başlanıldığını söyləyən şirkət prezidenti qeyd edib ki, hazırda mənzillərin 1 kvadrat metri 5000 dollara satılır:** "Burada yaşayan evindən bulvara, ticarət küçəsinə çıxa biləcək. Şəhərdə bütün infrastruktur qurulacaq. Qranitdən salınacaq yolların altı qaraj olacaq. Hər məhəllənin məktəbi, bağçası, idman zalı, çimərliyi və digər infrastrukturları olacaq. Tikilən mənzillər təmirli, mebeli ilə birlikdə təhvil veriləcək. Bu işlərə görə qiymət 5000 dollardır. Belə bir şərait heç bir yerdə yoxdur. Bu gün qiymətlər 5000 dollardır, iki ildən sonra isə ən azı 7000 dollar olacaq. Hazırda 200 ev satılıb. Layihəyə xaricilər daha çox maraq göstərirlər, 200 evdən 180-ni də məhz xaricilər alıblar".

Hacı İbrahim Nehrəmli bildirib ki, mənzillər şirkət üzərindən illik 4 faiz dərəcəsi ilə 15 ilədək ipoteka ilə də satılır.

**Daha sonra tanınmış iş adamı Hacı İbrahim Nehrəmli şəhər ərazisində görülən işlərlə media təmsilçilərini yaxından tanış edib.**

❑ Xəbər xìdmətì



# Prezident dərman monopolistlərinə təpindi

## Ölkə başçısı birinci rübün yekunlarına dair keçirilən iclasda əczaçılıq sahəsindəki durumla bağlı kəskin etiraz bildirib

**Aprelin 10-da dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

APA-nın məlumatına görə, İ.Əliyev 2015-ci ilin birinci rübünün yekunlarının müsbət olduğunu, bu dövrdə ümumi daxili məhsulun 5 faizdən çox artdığını deyib. Dövlət başçısı Azərbaycanda dinamik inkişafın təmin edildiyini, son 3 ayda qeyri-neft sektorunun 7 faiz, sənaye istehsalının 4 faiz, kənd təsərrüfatının isə 3 faizdən çox artdığını bildirib. Bütün bunların son illərdə ölkədə aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olduğunu deyən prezident bildirib ki, dünyada neftin qiymətinin kəskin düşməsi Azərbaycanın ümumi dinamik inkişafına təsir etməyib.

Dövlət başçısı ölkədə inflyasiyanın aşağı səviyyədə qaldığını, istehlak bazarına tam nəzarət edildiyini, əhalinin pul gəlirlərinin 5,3 faiz olduğunu da diqqətə çatdırıb.

Birinci rübdə də regionlarda müsbət meyllərin davam etdiyini, 30 minə yaxın yeni iş yerinin yaradıldığını deyən İ.Əliyev bildirib ki, ölkədə sosial məsələlərin həlli yenə də diqqət mərkəzindədir. Hazırda 20-dən çox tibb müəssisəsinin tikildiyini və ya təmir olunduğunu, əhalinin müayinədən keçirilməsi prosesinin davam etdirildiyini deyən dövlət başçısı bu il dövlət investisiya proqramının geniş olduğunu, zəruri layihələrin icrasının nəzərdə tutulduğunu vurğulayıb, ölkədə həyata keçirilən islahatların aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Ölkənin beynəlxalq nüfuzunun artdığını, Azərbaycanın dünya birliyinin dəyərli və etibarlı üzvünə çevrildiyini deyən İ.Əliyev yürüdülən xarici siyasətin çox çevik və fəal olduğunu diqqətə çatdırdı. Məhz bunun sayəsində son illərdə bölgədə yaşanan böhranlardan ölkənin itkisiz çıxdığını deyən dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycan dünya miqyasında böyük hörmətə malik ölkə kimi tanınır.

Dövlət başçısı çıxışında birinci rübdə baş verən iki önəmli hadisəyə - Bakıda "Cənub" Qaz Dəhlizi Məşvərət Şurasının iclasının keçirilməsinə və mart ayında Qarsda TANAP layihəsinin təməlinin qoyulmasına da toxunub.

Yekun nitqində İlham Əliyev qeyri-neft sektorunun və sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb. Hər bir rayonda sənaye zonalarının yaradılmasının vacibliyini diqqətə çatdıran dövlətimizin başçısı kənd təsərrüfatı sektorunun da inkişafının xüsusi əhəmiyyət kəsb etdiyini, ölkəmizin xarici ərzaq bazarlarından o qədər də asılı olmadığını bildirdi, amma bununla belə ərzaq təhlükəsizliyinin tam təmin olunması, torpaqların elektron uçotunun tərtib edilməsi ilə bağlı tapşırıqlarını verib.

Dövlət başçısı çıxışında manatın məzənnəsi ilə bağlı məsələyə də toxunub, bu sahədə görülən tədbirlərin iqtisadi baxımdan səmərəli olduğunu deyib. Bu il daha 3 "ASAN xidmət" mərkəzinin açılacağını deyən dövlət başçısı əhalinin elektrik enerjisi və içməli su ilə təminatının yaxşılaşdırılmasına dair tapşırıqlarını verib. Nitqinin sonunda İ.Əliyev ilk Avropa Oyunlarına hazırlığın yüksək səviyyədə getdiyini, artıq bir sıra idman obyektlərinin istifadəyə hazır olduğunu, Atletlər Kəndi ilə yanaşı, Media Kəndinin də yaradıldığını bildirib. Paralel olaraq paytaxtda abadlıq-quruculuq işlərinin davam etdirildiyini, yeni bulvar xəttinin salındığını diqqətə çatdırıb. İ.Əliyev əmin olduğunu bildirib ki, ilin sonunadək nəzərdə tutulan bütün məsələlər öz həllini tapacaq.

**İlham Əliyev iclasda ölkənin dərman bazarında hökm sürən vəziyyətdən kəskin narazılığını bildirib, dərmanların baha satıldığını deyib və Səhiyyə Nazirliyinə bu sahədə hökm sürən özbaşınalıqların aradan qaldırılması üçün tapşırıqlar verib.**

# Müsavat, ADP, Ümid "Azadlıq-2015"in tədbirini boykot edib?

## Üç partiyanın sədrindən izahat gəldi

**"Azadlıq 2015" seçki blokunun təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində keçirilən "Dəyişən dünya və Azərbaycan: mövcud durum və perspektivlər" adlı dəyirmi masaya Müsavat Partiyası, ADP və Ümid Partiyasının qatılmaması blok təmsilçilərinin onlara iradlar bildirməsinə səbəb olub. Blokun üzvü, tədbirin təşkilatçılarından olan AXP sədri Pənah Hüseyn isə bildirib ki, ola bilsin dəyirmi masaya qatılmayan partiyaların qoyulan mövzu ilə bağlı söyləyəcək fikirləri olmayıb, bəlkə ona görə qatılmayıblar.**

Adı çəkilən üç partiya isə tədbirə nə üçün qatılmadıqları barədə "Yeni Müsavat"a açıqlama veriblər.



**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, dəyirmi masanın keçirildiyi gün iş qrafiki həddən artın sıx olduğu üçün iştirak edə bilməyib: "Pənah bəyin isə bizim iştirak etməməyimizlə bağlı o sözlər deyəcəyinə inanmıram. Çünki bu mövzu ilə bağlı fikirlərimizi həmişə hər yerdə demişik".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Azadlıq-2015" seçki blokunun təşkil etdiyi dəyirmi masaya qatılmamasının səbəbinin olduğunu bildirdi: "Ənənəvi olaraq hər həftənin üçüncü günü saat 11-də "Qarabağ" blokunun toplantısı olur. Biz həmin dəyirmi masanın keçirildiyi gün-üçüncü gün saat 11-də blokun toplantısındaydıq. Ona görə də dəyirmi masada iştirak edə bilmədik. Müzakirəyə çıxarılmış mövzu ilə bağlı isə deyiləcək sözümüz var. Amma onu da qeyd edim ki, hörmətli Pənah bəyə bizim sözümüzdən daha çox eşitmək istədiyi başqa sözlər var. Onlarla danışsın ki, növbəti tədbirlərində onlar gəlsin. Orada çıxışında Pənah bəy qeyd edib ki, bu gün İsa Qəmbərin, Arif Hacılının, Əli Kərimlinin fikirlərini dinləməyə daha çox ehtiyac var. Ona görə də hər halda bizim orada olub-olmamağımız heç nəyi dəyişmirdi. Pənah bəyə onların fikirləri maraqlıdır, onları eşidər gələn tədbirlərində. Çalışsın ki, onlar iştirak etsin".

**ADP sədri Sərdar Cəlaloğlu** da dedi ki, eyni vaxtda "Qarabağ" blokunun toplantısı olduğu üçün dəyirmi masaya qatıla bilməyib.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

**“Bizim qonaq”**

**Azərbaycanda iqtisadi-siyasi şərhlərinə, təhlillərinə ciddi etimad bəslənilən deputat, Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədovla ölkədəki vəziyyəti geniş şəkildə dəyərləndirmək üçün istiqlalçı millət vəkilini “Yeni Müsavat”a dəvət etdik. Baş redaktor Rauf Arifoğlu, baş direktor Ələsgər Süleymanov, redaktorlardan Zahid Səfəroğlu, Nazim Sabiroğlu və bu sətirlərin müəllifinin iştirakı ilə keçən söhbətimizi sizə təqdim edirik.**



# “Vəzifəli şəxslər dedilər ki, ”sən partiya yarat, maliyyələşdirəcəyik“

## Vahid Əhmədov: “Parlamentdə şəxsən mənə təzyiq yoxdur, istədiyimi deyirəm, istədiyim məsələyə fikir bildirirəm“

Bu bölümdə istiqlalçı deputatla ilk dəfə ictimailəşdirilən bir sıra ilginc faktların da yer aldığı söhbətimizin sonuncu bölümünü təqdim edirik. Vahid müəllim eks-prezident Heydər Əliyevlə SSRİ-nin saxlanması barədə etdiyi söhbəti xatırladır: “Hələ SSRİ dağılmamışdı, biz martın 17-də referenduma səs verirdik. Dedi heç nədən qorxub-eləmə, səs ver, getsin. Elə dediyi kimi də oldu... O kişi çox zəhmli idi. Nazirlər onun kabinetinə girib çıxanda çox vaxt heç lifti tapmırdılar”...

Və davam edir:

***(əvvəli ötən saylarımızda)***

- ... Cənab İlham Əliyev çox humanist adamdır. Özü də qarşıdakını dinləyir, nə təklif verirsən, ona qulaq asır, təbii ki, öz fikrini də deyir...

***- Vahid bəy, Qubadan danışmışkən, qubalı milyarderlər yada düşür. Bunların əllərində kifayət qədər vəsait var. Sizin onlarla hər hansı təmasınız, əlaqəniz varmı?***

- Əlaqə deyəndə ki, hamısı məni tanıyır, mən də hamını tanıyıram. Açığını deyim ki, bizim onlarla maliyyə söhbətlərimiz yoxdur.

***- Yox, söhbət ölkəyə investisiya qoyulmasından gedir...***

- Bunlar əsasən Rusiyada işləyirlər, bütün var-dövləti düzdür, başqa ölkələrdə də çoxdur, amma əsasən şimal qonşumuzdadır. Əsasən də Putinlə işləyirlər. Qubanın da bütün xeyir-şərində iştirak edirlər, camaata da kömək edirlər. Amma onların Azərbaycanda investisiya yatırımları yoxdur...

***- İran-Qərb anlaşmasının Azərbaycana müsbət və mənfi təsirləri barədə çox danışılır. Belə hesab edənlər də var ki, İranın mövqelərinin güclənməsi Azərbaycana növbəti təhdidlər vəd edir. Sizin düşüncələrinizi bilmək maraqlı olardı...***

- Mən onu qəbul etmirəm. İranla əlaqədar uzun müddətdir bu danışıqlar gedirdi. Çalışırdılar ki, İranı nüvə istehsalı yolundan çəkindirsinlər. Hələ demək olmaz ki, buna nail olunub, çünki çərçivə sazişi imzalanıb, yekun saziş isə iyulun əvvəli imzalanmalıdır. O sazişin imzalanmasından sonra nəsə demək olar. Amma ümumi götürəndə əlbəttə, İranın nüvə silahının istehsalından əl çəkməsi, bu ölkənin üzərindən müəyyən sanksiyaların götürülməsi, İranın Avropaya açılması müsbət haldır. Birincisi, bizim orda 30 milyondan artıq azərbaycanlımız yaşayır, vəziyyətləri də o qədər yaxşı deyil, müəyyən problemlər var. İranda demokratik proseslər getsə, bu, onlar üçün çox yaxşıdır. İkinci tərəfdən, İran-Azərbaycan münasibətlərində bizim elə bir gərginliyimiz yoxdur. O da İslam dövlətidir, biz də. Əlaqələrimiz də yüksək səviyyədədir. Lazım gələrsə, İranın müəyyən məhsullarını Azərbaycan vasitəsilə də Avropaya çıxartmaq mümkün olar. Məsələn, mən belə təsəvvür edirəm ki... Bu yaxınlarda cənab prezident Bolqarıstana getmişdi. Orda Bolqarıstan vasitəsilə qazın Avropaya ixracını danışdılar. O cümlədən Nabukkonun bir hissəsi olan layihənin həyata keçirilməsi üçün müəyyən anlaşmalar imzaladılar. Ola bilər ki, vaxt gəlsin, İran qazı da bizim kəmər vasitəsilə Avropaya çıxarılsın. İran neftinin dünya bazarına çıxarılmasından danışılır. Ümumiyyətlə, İran dünyada neft və qaz ehtiyatlarına görə ən iri üç dövlətdən biridir. İran, Qətər və Türkmənistan dünya qazının 42 faizini ixrac edir. Bayaq qeyd etdim, ola bilər İran, yaxud Səudiyyə Ərəbistanı neftin qiymətlərini artırmaq istəsinlər. Lakin ABŞ-ın neft ehtiyatı o qədər böyükdür ki, istənilən vaxt bunun qarşısını alacaq. O vaxta qədər ki, Rusiya Ukrayna ilə əlaqədar öz problemlərini həll edəcək. Ona görə də İranın “Altılıq”la görüşləri, danışıqları, razılaşma imzalaması bizə yalnız müsbət çalarlar gətirəcək, mən bunun mənfi tərəfini qəbul etmirəm.

## “Əsrin müqaviləsi” səviyyəsində ikinci müqaviləni İlham Əliyev imzaladı”

***- İrandan Azərbaycana iri pullar gələ bilər? Heç danışılırmı ki, Tehranın hansı sahələrə yatırım qoyması real və mümkündür?***

- Bəli, pullar, investisiyalar gələ bilər. Mən 1993-cü ildə baş nazirin 1-ci müavini işləyəndə İranın müdafiə naziri mənə bütün obyektləri göstərdi. O zaman mən İranda 10 gün olmuşdum.

***- Hətta nüvə obyektlərini də?***

- Bəli, hamısını. İranın çox güclü hərbi potensialı var. Razılaşma elə-belə olmadı ki. Dedilər Amerika bu gün-sabah hücum edəcək, İsrail belə edəcək, amma... İran çox güclü dövlətdir. Həm dini, həm də hərbi cəhətdən. Bir çox adamlar qəbul etmək istəmir, amma mən şəxsən müşahidə etmişəm. Ona görə də İran dövləti ilə bizim aramızda əməkdaşlıq haqda sazişlər imzalansa, çox ciddi müsbət nəticələr gətirəcək. Məsələn, İranda çox gözəl bankçılıq sistemi var, halal bankçılıq. Sadəcə biz o bankçılıq sistemini Azərbaycanda tətbiq etmək istəyirik, burada konfranslar keçirilir, mən orda iştirak edirəm. Çox gözəl sistemdir, niyə onu burda tətbiq etməyək, inkişaf etdirməyək?

***- Amma burda İran bankının filialları var idi, lakin onların inkişafına imkan verilmədi...***

- İnkişafına imkan verilmədi, çünki bizim banklar özü də hamısı monopoliyadadır.

***- Bəy, bunları niyə parlamentdə açıq demirsiz, mümkün deyil?***

## “Mərkəzi Bankın İdarə Heyətinin sədri təsdiq olunanda mənim fikrim başqa cür idi”




## “Nazirlər Heydər Əliyevin kabinetinə girib çıxanda çox vaxt heç lifti tapmırdılar”

- Sizə açıq deyim, parlamentdə şəxsən mənə təzyiq yoxdur, istədiyimi deyirəm, istədiyim məsələyə fikir bildirirəm.

***- Heç xahiş olunurmu ki, hansısa məsələni deməyin?***

- Azərbaycandır da. Elə şeysiz mümkün deyil. (Gülürük)

***- Həmin xahişlərə əməl edirsinizmi?***

- Əməl etdiyim vaxtlar da olur. Məsələn, bu yaxınlarda biz Mərkəzi Bankın İdarə Heyətinin sədrini təsdiq edəndə mənim fikrim başqa cür idi. Elman Rüstəmova hörmət edirəm, amma mən devalvasiyanı qəbul etmədim. Amma təklif cənab prezidentdən gəlmişdi ki, o, təsdiq olunsun, Oqtay Əsədov da razılıq vermişdi. Oqtay Əsədovla biz uzun müddətdir, hələ zavod direktoru işləyəndən dostuq, həmkarıq, yoldaşıq, ona hörmətim də böyükdür. Cənab prezidentə də dediyim kimi, böyük hörmətim var. Ona görə də biz səs verdik, təsdiq etdik. Yəni belə hallar olur.

***- Bayaq dediniz ki, parlamentdə YAP çoxluğu var. Vahid Əhmədovun özünün bir partiya yaratmaq niyyəti varmı, belə təkliflər olubmu?***

## “Azərbaycan bu gün çox dövlətlərə lazımdır”

- Olub. Hətta 1993-cü ildə hakimiyyət dəyişikliyindən sonra böyük vəzifəli şəxslər mənə dedilər ki, partiya yarat, maliyyələşdirəcəyik. Dedim mən bir partiyanın üzvü olmuşam, bundan sonra heç bir partiyanın üzvü olan deyiləm. Heç vaxt hansısa partiya qurmaq fikrində olmamışam.

***- Hiss olunan budur ki, müxalifətin də sizə böyük hörməti var. Onların tanınmışları ilə münasibətlər varmı?***

- Münasibətlər hamı ilə var. Xeyirdə-şərdə iştirak edirik, görüşürük. Əksəriyyəti ilə bir yerdə işləmişik, rəhbər vəzifədə olublar, nə qədər çətinliklər görmüşük. İndi 92-93-cü illər barədə deyirlər e... İnanın mənə, ağır illər idi. Siz də o illəri bizimlə yaşamısınız. Mən 1993-cü ildə baş nazirin 1-ci müavini işləyəndə hökumətin kassasında 1 manat yox idi, taxılı, heç nəyi yox idi. Allah rəhmət eləsin Əbülfəz Elçibəyə, yaxşı kişiydi, məndən soruşdu ki, bəs nə edək, taxıl yoxdur. Məcbur oldum Rusiyaya getdim, orda 10 günə qədər oturdum. Bizə kömək etdilər, 7 milyard kredit götürdük, taxıl alıb gətirdik. Çətin vaxt idi. İndi nə var işləməyə, dövlətdə pul var, nefti var.

(Haşıyə çıxır) Heydər Əliyev 1993-cü ildə Naxçıvan Ali Məclisinin sədri olanda yanacağın İran vasitəsilə Muxtar Respublikaya çatdırılması üçün 80 dənə maşın təşkil etmişdik. O maşınlar yanacağı Azərbaycandan Naxçıvana İran vasitəsilə daşıyırdı. O cümlədən Şəmsəddin Xanbabayev, Eldar İbrahimov həmişə bu məsələlərlə əlaqədar mənimlə təmasda olublar. Həmçinin o ağır vaxtlarda biz Naxçıvana Türkiyədən taxıl gətirirdik. Türkiyədən gələn taxılı Poti limanı vasitəsilə Batumidən daşıyırdıq, Naxçıvana verirdik. Gürcülər məhsulun müəyyən hissəsini götürürdü, bizə qulaq asmırdılar, heç vəsait də ödəmirdilər. Bütün bunları mən və Heydər Əliyev telefon danışıqları ilə həll edirdik. Çalışırdıq o taxılı ordan götürsünlər ki, Gürcüstan özü üçün daşımasın. Yəni belə əlaqələr də olub...

Mən bir şeyi də demək istəyirəm, 1994-cü il “Əsrin müqaviləsi”ndən danışılır. Bu müqavilə olmasaydı, bizdə vəziyyət çox gərgin olardı. Bəlkə də heç bu gün Azərbaycan olmazdı. İkinci belə müqaviləni də İlham Əliyev imzaladı.

***- TANAP? Ona bu qədərmi önəm verirsiniz?***

- Bəli. Çox böyük önəm verirəm. Bu kontrakt Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət kəsb edir. Mən onun iqtisadi faydasını bir kənara qoyuram. Avropa dövlətlərinin qazla təminatında bu müqavilənin çox böyük əhəmiyyəti var, bizimçün olduqca əhəmiyyətlidir. Bura hardasa 45 milyard dollara yaxın investisiya qoyulacaq, bu, məni o qədər maraqlandırmır. Amma o dövlətlərə marağı var ki, Azərbaycan qazını Avropaya çıxartsın. Dövlətimizin müstəqilliyi üçün bu, çox önəmlidir. Siz fikir verin, bu müqavilə imzalanmamışdan qabaq Rusiyanın prezidenti, baş naziri, “Qazprom”un sədri neçə dəfə Azərbaycana gəldi ki, biz qazı Rusiya üzərindən ixrac edək. Amma cənab prezident ona getmədi. Açığını deyim, riskə getdi belə bir qərarı verdi.

***- TANAP layihəsi Rusiyanı qıcıqlandırırmı?***

- Bəs necə.

***- Bunun qarşılığında şimal qonşumuzun hansısa cəhdləri, sürprizləri gözlənilləndirmi?***

- Cəhdləri oldu da. Rusiya prezidenti Türkiyəyə getdi, Ərdoğanla görüşdü, “Türk axını” ilə bağlı razılaşmaya gəldilər, amma o da iflasa uğradı. Azərbaycanı müdafiə edən dövlətlər də çoxdur. Baxmayın ki, biz indi deyirik içəridə demokratiya, söz azadlığı problemi var. Amma Azərbaycan bu gün çox dövlətlərə lazımdır. Ona görə də Azərbaycanı müdafiə edəcəklər...

❑ **Hazırladı: Elşad PAŞASOY**
**FOTO: Məhəmməd TÜRKMƏN**

# "Arzularla imkanlar üst-üstə düşmürsə, səbəbini düşünmək lazımdır"

**Bakir Həsənbəyli:** "Siyasi partiyanın fəaliyyəti həm də insanları özü, ailəsi, vətəni, milləti və dövləti haqqında düşünməyə sövq etməkdir"



**Ümid partiyası sədrinin son parlament çıxışı medianın diqqətini yenidən bu partiyaya yönəltdi. Millət vəkili İqbal Ağazadənin "Dağlıq Qarabağda yaşayan erməniləri separatçı rejimdən qaçmağa, Azərbaycan hökumətini isə həmin şəxslərə məcburi köçkün statusu verməklə yanaşı, onları Azərbaycan pasportu ilə də təmin etmək" çağırışı istər siyasi, istərsə də media camiəsində ciddi müzakirələrə səbəb oldu.**

**Ümid Partiyası sədrinin Təşkilat məsələləri üzrə müavini Bakir Həsənbəyli** partiyanın Mətbuat Xidmətinə verdiyi müsahibəsində bu məsələyə də münasibət bildirib:

- Öncə onu qeyd edim ki, Ümid Partiyası kollegial idarə olunan siyasi təsisatdır. Sözsüz ki, hər bir təklifin, bəyanatın ardında ciddi müzakirələr durur. Təvazökarlıqdan uzaq da olsa qeyd edim ki, bəlkə yeganə partiyadır ki, mütəmadi olaraq cəmiyyətin diqqətini çəkən sosial-iqtisadi, siyasi problemlərlə bağlı mütəmadi daxili dəyirmi masalar təşkil edir. Yalnız aprel ayında müxtəlif mövzulara həsr olunmuş dörd belə tədbir nəzərdə tutulub. Bunları sadalamaqda məqsədim odur ki, istər partiyanın sədri, istərsə də hansısa funksioner tərəfindən mediada səslənən fikir gündəm üçün, ani söylənilən məsələ deyil. Fikir verdinizsə cənab sədrin təklifi ölkənin düşünən insanları tərəfindən müsbət qarşılandı. Etiraz göstərisi sərgiləyənlər isə yalançı adla status yazan FB "qəhrəmanları" idi.

***- Mətbuatı izləyərkən Ümid Partiyasının rəhbərliyində son dövrlər yeni simaların olduğu görünür. Hər kəsin müxalifətə ehtiyatla baxış sərgilədiyi bir zamanda...***

- Mən hər kəsin deməzdim, öz taleyinə biganə qalan deyərdim. Bu tip adamlar isə heç özlərinə də lazım deyil. Konkret Ümid Partiyasının Mərkəzi Aparatında fəaliyyət göstərən gənclərə gəldikdə isə, belə savadlı, hazırlıqlı gənclər istər İcra Aparatında, istər Rəyasət Heyətində, istərsə də Ali Məclisdə kifayət qədərdir. Bilirsiniz gənclik yeni ruhun daşıyıcılarıdır. Ölkənin bu günkü durumunun ən böyük səbəblərindən biri də əski kafalılıqdır. Yeniliyə qarşı basqıdır. Yuxarıda cənab sədrin təklifindən əndişəyə düşənlər də məhz əski kafalılardır.

***- Təşkilatı işlərlə bağlı hansı yeniliklər var?***

- Ümid Partiyası olaraq az bir qisim rayon var ki, orada strukturlaşmış təşkilatımız olmasın. Lakin həmin rayonlarda da təşkilat komitəsi formatında təmsil olunuruq. Biz Təşkilat məsələləri üzrə müavinlik olaraq tərtib etdiyimiz iş planımıza rayon təşkilatlarının yalnız Mərkəzi Aparatdan tapşırıq alaraq işləməsini deyil, eyni zamanda RT-lərin Mərkəzi Aparatın yerli təşkilatlarla işləməsinin formaları ilə bağlı təkliflərini də ciddi müzakirə edib, mümkün variantı idarəçiliyə tətbiq edirik. Belə olanda yerli şöbə sədrləri öz üzərlərində daha ciddi çalışırlar. Təbii rəqabət mühiti yaranır. İndi həssas dönəmdir. Hər bir fərdimiz belə bizim üçün vaciblik dərəcəsindədir.

***- Partiya siyasi fəaliyyəti ilə bağlı yeni hansı planlarınız var?***

- Əslində atdığımız hər bir addım yalnız partiyamız üçün deyil. Ümid öncə vətən, millət, dövlət anlayışı ilə fəaliyyət göstərən partiyadır. İnsanlarımızla işləyirik. İnsanlarımız deyərkən yalnız partiya üzvlərini nəzərdə tutmuram. Ümumi anlamda söyləyirəm. Müxalifətçiliyin hansısa rəsmi görəv olmadığını aşılayırıq. Əgər arzularınla imkanların üst-üstə düşmürsə səbəbini düşünmək məcburiyyətindəsən. Siyasi partiyanın fəaliyyəti həm də insanları özü, ailəsi, vətəni, milləti və dövləti haqqında düşünməyə sövq etməkdir.

# Partiyada dəyirmi masa keçiriləcək

**14 aprel (çərşənbə axşamı) 2015-ci ildə saat 12.00-da Ümid Partiyasının Mərkəzi qərargahında Partiyanın Seçki və Təbliğat şöbəsinin təşkilatçılığı ilə "Avtoritar rejimlərdən demokratiyaya dinc keçidin dünya təcrübəsi" mövzusunda dəyirmi masa keçiriləcək. Məruzəçi Seçki və Təbliğat şöbəsinin müdiri Qədir Aslanovdur.**

Xatırladaq ki, Ümid Partiyası bir neçə aydır ki, ardıcıl olaraq hər həftə müxtəlif mövzularda dəyirmi masalar keçirir. Mövzular əvvəlcədən İcra Aparatının hər həftə keçirilən yığıncağında şöbə müdirləri tərəfindən kollegial şəkildə müzakirə olunur. Ötən həftə keçirilən dəyirmi masanın mözusu iqtidar-müxalifət dialoqu idi.

Arzu edənlər və media təmsilçiləri tədbirdə iştiraka dəvətlidir.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



## Millət vəkili gənclərlə görüşdü

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə partiyanın bir qrup fəal gəncləri ilə görüşüb. Görüşdə Partiya sədri ölkədə, regionda və dünyada baş verən ictimai-siyasi proseslər, qarşıdan gələn parlament seçkiləri, gənclərin ictimai siyasi proseslərdə yeri və rolu, iqtidar-müxalifət dialoqu ilə bağlı gəncləri maraqlandıran sualları cavablandırıb, parlament seçkilərinə hazırlıqla bağlı onları məlumatlandırıb, qarşıda duran vəzifələr, görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verib.**







## Ümid Partiyasının Ali Məclisi sessiya keçirəcək

**Aprelin 11-də saat 11.00-da Ümid Partiyasının Mərkəzi Qərargahında Partiyanın Ali Məclisinin növbəti sessiyası keçiriləcək. Sessiyada təşkilati məsələyə baxılacaq. Ölkədəki ictimai-siyasi vəziyyət və partiyanın parlament seçkilərinə hazırlığı ilə bağlı partiyanın sədri İqbal Ağazadənin məruzəsi dinləniləcək.**

Sessiya bütün mətbuat orqanlarına açıqdır.

# Bir daha oyunlar haqda



**Zamin HACI**
zaminhaci@gmail.com

**Hökumət uca millətimizə növbəti əmr və tapşırıqlarını çatdırmışdır: qabaqdan gələn Avropa Oyunları (AO) münasibətiylə küçəyə çıxmaq qadağan ediləcəkdir. Apteklərə, dükanlara mal aparan maşınlar ancaq gecə hərəkət edəcəkdir. Evi təmir edib drelin səsiylə Drezdendən qonaqlarımızı, xoruldayıb Xorvatiyadan gələn idmançıları narahat etmək isə xüsusi ağır cinayət sayılacaqdır. Toy eləmək, ər-arvadın qucaqlaşıb yatması, uşaqları döymək, qaynatanı və yeznəni baltalamaq, Elgizin və Zaurun verilişləri, həccə getmək, tində təsbeh fırlatmaq, Topazda şot vermək və sairə də qadağandır.**

Fərman bu yazını oxuduğunuz andan qüvvəyə minir. Zarafat edirəm, qorxmayın, hələlik sərbəst xoruldaya bilərsiniz. Hətta hamamda fınxırmaq da olar. Qanun ancaq AO günlərində, 1 ay qüvvədə olacaqdır. Hərçənd, eşitdiyimə görə bundan da sonra İslam Ölkələri Həmrəylik İdman Turnirini qayırmağa başlayırıq. Yaxşı olar AO münasibətiylə tətbiq edilən qanunlar müsəlman idmançıların gəlişi günlərində də qüvvədə olsun.

Ümumən, çox yaxşı qaydalardır. Misal üçün, Bakı kəndlərinin sakinləri "Koroğlu" metrosunun yanında avtobusa minirdilər, nəticədə üstü-başı çirkli fəhlə-kəndli insanlar şəhərimizin qonaqlarında mənfi təəssürat yaradırdı. Təəssüf ki, bu insanların üstünə hasar çəkmək, alukobond örtmək hələlik mümkün deyil. Bu üzdən, qara camaatı "Qara Qarayev" metrosu tərəfdəki avtobus dayanacaqlarına qovdular.

Bir çox idarə və müəssisələrdə iş vaxtı AO-ya görə dəyişdirilmişdir. Müdirlərə tövsiyə edilir ki, mümkündürsə həmin günlərdə iş yerlərini tamam bağlasınlar. Ancaq bizim camaata tövsiyənin xeyri yoxdur. Başa salırsan, başa düşmür, gərək döyəsən. Bu baxımdan, məndə dəqiq məlumat var ki, oyunlar keçirilən günlərdə şəhərin giriş qapılarında snayperlər qoyulacaq, minalar basdırılacaq, bəlkə cəbhə xəttindən asudə qalmış bir-iki tank batalyonu da prosesə cəlb edilsin. Artıq adamları vurmaq üçün. Dəqiq limit qoyulacaq, misal üçün, Nəqliyyatın İntellektual İdarəetməsi və Ziya Müəllimin Kompüter Kəlləsi İdarəsinin mütəxəssisləri yaponiyalı, koreyalı həmkarları ilə birlikdə alqoritmlər yaradıblar, bu alqoritmlər hansı idman turniri olan küçəyə neçə nəfər azərbaycanlı yetimi buraxmaq mümkündür - bunun riyazi modellərini qayırır. "20 yanvar" tərəfə ancaq 100 adam keçməlidirsə, qalanlarını Biləcəri aşırımında snayperlə dənləyəcəklər. Yaxud, Bayıldan 50 adamlıq icazə varsa, qalanları girişdə OZM minalarına salınacaqdır. Tankın qabağına qatıb qovmaq da olar. Onsuz bu azərbaycanlılar çox ağ eləyiblər, Bakını hərdən yuxularında öz şəhərləri sayırlar.

Amma gözlənilməz hallara da hazırlaşmalıyıq. Bulvar istiqamətini gərək unutmayaq. Avropa Oyunları üçün əsas təhlükə mənbələrindən biri üzməyi bacaran azərbaycanlılar ola bilər. Onlar dənizdən üzüb şəhərə çıxarlar, idmançıların əl-ayağına dolaşarlar. Hətta bəziləri Rusiyadan gələn fiqurlu konkisürən cütlüyə yaxınlaşıb: "Sən o yanındakı qəşəng qızın canı, bir nəzir ver!" deyəcək qədər həyasızlığa, siyasi səbatsızlığa, qara qüvvəçiliyə, xarici dəyirmançılığa yol verər! Bizə bu yaraşarmı? Siz istəyərsinizmi ki, 1-ci Avropa Oyunlarının üzərinə hansısa ləkə, cüzi bir xal düşsün, mikroskopik tozcuq qonsun? İstəməzsiniz, heç mən də istəmərəm. İstəyənin gözü çıxsın. Avropa Oyunlarına bizim canımız qurbandır. Avropa Oyunları bizim anamızdır, ana südümüzdür, vətənimizin gülü, yurdumuzun çiçəyidir. Şair bu münasibətlə yazmışdır: "Hansı səmtə, hansı yana, Hey uçsam da yuvam sənsən, Avropa Oyunları!". "Evrovizqon" bizim atamız idi, Avropa Oyunları da anamızdır. Hər birinin qəlbimizdə öz yeri var. Valideynin üzünə ağ olan uşaq böyüməz, böyürər.

**Düzdür, bu yaxında Avropa qəzetləri yazdılar ki, əslində bizdəki saxtadır, əsl Avropa Oyunları bir neçə il sonra olacaqdır. Bakıya heç bir komanda öz gerçək heyətini göndərməyəcəkmiş, üçüncü-dördüncü əvəzedici uşaqlar gələcəkmiş. Olsun. Bizə çalınan mahnının musiqisi, sözləri, hətta kimin toyu olması maraqlı deyil. Əsas odur hava sümüyümüzə düşsün, yeyib-içib oynayaq. Milli mentalitet abidəmiz olan "Bəyin oğurlanması" filmində Hidayət müəllim deyən kimi: "Nə fərqi var səs hardan gəlir, oynamaq lazımdır!"**

# Azərbaycandakı məcburi devalvasiya haqda ilginc iddialar

**Fevralın 21-dən etibarən dollar və avro ilə müqayisədə ucuzlaşma xətti götürən manatın kursunda enmə prosesi davam edir. Belə bir situasiya isə təbii olaraq ölkədə ciddi ajiotaj yaradıb.**




# "Qərb Azərbaycanda "pul inqilabı" həyata keçirmək istəyir"

## 45 milyard ehtiyatı olan Azərbaycan xaricdəki pullarını niyə ölkəyə gətirə bilmir; ekspertlərdən maraqlı rəylər; Mərkəzi Bank rəhbəri Elman Rüstəmov Avropa dairələri ilə danışıqlar aparır...

İqtisadi çevrələrə yaxın müxtəlif mənbələrdən aldığımız məlumata görə, manatın ucuzlaşması şəraitində ölkədə milli valyutanın kasadlığı, nağd pul qıtlığı müşahidə olunur. Ekspertlər hesab edir ki, adətən, milli pulun dəyərdən düşməsi şəraitində milli valyuta "bolluğu" hökm sürdüyü halda, Azərbaycan manatının hazırkı durumunda bu barədə danışmaq mümkün deyil. Düzdür, hələ ki milli pulumuzla bağlı kəskin dəyərsizləşmə baş verməyib. Lakin iki ay öncə manatın dollarla müqayisədə 33-35 faiz ucuzlaşmasının ardınca növbəti dəyərsizləşmə prosesi günbəgün davam edir. Üstəlik, ölkə bazarında manat krizinin yaşanması barədə xəbərlər də maliyyə sektorunda nə baş verdiyi barədə sualları ortaya çıxarır.

Rəsmi məlumata görə, Azərbaycanın xaricdəki valyuta ehtiyatlarının ümumi həcmi 45 milyard dollardan yuxarıdır. Nəhəng miqdarda olan bu pul kütləsinin müəyyən hissəsinin ölkəyə qaytarılması, investisiya sahələrinə cəlb edilməsi, yeni sənaye, istehsal-emal müəssisələrinin yaradılması barədə ötən illərdə qaldırılan təşəbbüslər dəyərləndirilmədi. O zaman Azərbaycanın daxilində də kifayət qədər neft pullarının olması arqumenti səsləndirilirdi və hesab olunurdu ki, Dövlət Neft Fondunun xaricdəki ehtiyatlarının cəlbinə zərurət yoxdur. Lakin neft bazarındakı kəskin ucuzlaşma səbəbindən dollar axınının da ölkəmizə azalması və cüzi istisnaları nəzərə almasaq, xərclərin saxlanması şəraitində əlavə pul kütləsinə ehtiyac duyulur. Azərbaycan Mərkəzi Bankının ilin əvvəlindəki 15 milyardından artıq 10 milyardlıq ehtiyatı qalıb və manatın kursunun saxlanması ilə əlaqədar xərclər davam edərsə, bu vəsait ilin sonuna qədər tam tükənə bilər.

Belə bir şəraitdə Azərbaycanın xarici banklardakı ehtiyat vəsaitinin ölkəyə transının zəruriliyi barədə təşəbbüslər səslənir. Məlumatlı mənbələrdən əldə etdiyimiz məlumata görə, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov son 10 gündə xaricdə olub və müvafiq qurumlarla danışıqlar aparıb. Ancaq mənbəmizin iddialarına görə, Avropa bankları, fondları ilə aparılan danışıqlar hələ ki, bir səmərə vermir. Konkretləşdirsək, son zamanlar Azərbaycana təzyiqlərini davam etdirən Qərb dairələri bank sektorunu da unutmayıblar və Azərbaycan hakimiyyətini daxildə müəyyən addımlara vadar etməkdən ötrü onu "kəskin pul çatışmazlığı" problemi ilə üzbəüz qoymağa qərar veriblər. Hətta iddialara görə, növbəti aylarda Azərbaycanda əmək haqqı və pensiya ödənişləri ilə bağlı problemlərinin yaranа biləcəyi təhlükəsi də var və Qərbdəki ayrı-ayrı dairələr bununla Azərbaycanda sosial partlayışa gətirə biləcək proseslər başlatmağı ssenariləşdirir.

Yeri gəlmişkən, son vaxtlar Rusiya dairələri Qərb paytaxtlarında Azərbaycanda "rəngli inqilab"lar hazırlandığı barədə iddiaları dövriyyəyə buraxıb. Təbii ki, burada Azərbaycan uğrunda mübarizənin elementləri də olmamış deyil. Paralel olaraq Qərbdən də analoji ittihamlar Rusiyanın ünvanına səslənir. Lakin fakt budur ki, qeyri-neft sektoru zəif inkişaf edən, neftin ucuzlaşması səbəbindən daxildəki ehtiyatları azalan Azərbaycan maliyyə bazarına "yeni nəfəs" vermək üçün hərəkətə keçsə də, hələlik müsbət nəticə əldə edə bilməyib.

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu** ölkəyə valyuta ehtiyatlarının gətirilməsində yaranan çətinlikdə siyasi səbəb görmür: "Sadəcə, valyuta ehtiyatlarının tərkibində sayılan Neft Fondunun aktivlərinin çox hissəsi səhmlərdə, bir hissəsi depozitlərdə, bir hissəsi əmlakda və bir hissəsi də qızıldadır. Ona görə də onları biz istədiyimiz vaxt əməliyyatlara cəlb edə bilmirik. Bunun üçün valyutanın idarə olunması ilə bağlı kontraktlara yenidən baxılmalıdır. Bu isə xüsusilə də uzunmüddətli müqavilələrlə tənzimlənən, əmlakda və qızılda olan vəsaitlərdən sərbəst istifadə imkanlarını məhdudlaşdırır. Mərkəzi Bankda isə vəziyyət başqadır, onları sərəncamlarında olan vəsaitlərdən daha sərbəst və asan şəkildə istifadə edirlər. Amma bu gedişlə bu ilin sonunadək Mərkəzi Bankın valyuta ehtiyatları manatın sabitliyinin qorunması üçün istifadə olunaraq, tükənə bilər".

**Turan İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** isə bildirdi ki, Azərbaycan Neft Fondunun vəsaitlərinin böyük hissəsi xaricdədir: "Neft Fondunun vəsaitlərlə bağlı müəyyən öhdəlikləri var. Azərbaycan hakimiyyəti onu istədiyi kimi xərcləyə bilməz, limitlər var. Yaxud müəyyən faizlərlə ayrı-ayrı banklara yerləşdirilən vəsaitlər də var. O vəsaitlər ki, Azərbaycana gəlir, bu, neft satışına görədir. Azərbaycanın vəsaitlərinin xərclənməsinə Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Şəffaflıq Təşəbbüsü Mərkəzi nəzarət edir. Əgər nəzarət olmasa, bizim hökumət o pulları 5-6 aya xərcləyər. Yaxşı ki, nəzarət var. Təkcə manatın sabit saxlanmasına 1,5 milyard xərclənmişdi. 2013-cü ildə isə Dövlət Neft Fondunun aktivlərindən 2 milyard götürüldü, bu, nonses idi".

**Mehman təsdiqlədi ki, Azərbaycanın qarşısında konkret tələblər qoyulub:** "İslahatlarla bağlı tələblər çoxdan qoyulub. Dünya Bankı islahatlara görə 2013-cü ildə 1 milyard vəsait ayırmışdı. Azad iqtisadiyyat, vergilər, rəqabətlə, gömrüklə bağlı nə qərar verilib? Heç bir addım atılmayıb. Hazırda Beynəlxalq Ticarət Təşkilatı ilə bizim danışıqlar yenidən aktivləşib. Necə olur ki, Gürcüstan və Ukrayna bu təşkilatın üzvüdür, amma Azərbaycan yox. Adını da qoyurlar ki, biz daxili bazarı qoruyuruq. Neftdən başqa sənin nəyin var ki, qoruyursan?"

Adlarını çəkdiyimiz ekspertlərdən başqa, adlarının qeyd olunmasını istəməyən və kifayət qədər tanınmış ekspertlərlə də danışdıq. Onlardan daha mötəbər hesab etdiyimiz biri dedi ki, Azərbaycanın doğrudan da öz vəsaitlərinin bir qismini ölkəyə gətirməsində problem yaranıb: "Hesab edirəm ki, bu, süni yaradılan problemdir. Amerika və digər Qərb ölkələri hazırkı iqtidarı çətinliyə salmaq və öz tələblərini yeritmək istəyir. Onların istəkləri isə yalnız demokratiya ilə bağlı deyil. Tələblər çoxşaxəlidir. Onların yaratdığı problem ona gətirib çıxartdı ki, Azərbaycan iqtidarı planlaşdırmadığı bir işə - yerli valyutanın devalvasiyasına getdi. Hansı ki, bunu seçkilərə qədər etməməklə bağlı daxili qərar var idi. Devalvasiyadan günlər öncə ölkənin prezidenti demişdi ki, manat ucuzlaşmayacaq. Üstəlik, hətta xaricilərі də öz vəsaitlərini manatda saxlamağa səsləmişdi. İdentik çıxışı qəfil devalvasiyadan 72 saat öncə Mərkəzi Bankın Rəhbəri Elman Rüstəmov da ifadə etmişdi. Lakin məlum oldu ki, işlər tərs gedir və Qərb paytaxtları Azərbaycana öz vəsaitlərini yerli valyutanın güclü qalması üçün xərcləməyə icazə vermir! Üstəlik, sonradan prezidentin də dediyi kimi, hansısa qüvvələr böyük partiya dollar alışına başladılar və ölkənin bank-maliyyə sistemi tam çökmə təhlükəsinə girdi. Bununla da sərt devalvasiya zərurəti ortaya çıxdı".

**Bu mötəbər ekspertin iddiasına görə, Qərbin Azərbaycan iqtidarını "pul sınağı"na çəkməsi davam edəcək:** "Ölkəmiz uğrunda Rusiya ilə Qərb koalisiyası arasında savaş gedir. Hər iki tərəf əllərindəki rıçaqlar, vasitələrlə Azərbaycan iqtidarına təsir etməyə çalışır ki, əks tərəfin təzyiqlərindən çəkinib, onun mövqeyini seçməsin. Belə bir vəziyyət ölkəmiz üçün ciddi risk yaradır. Azərbaycanı, hətta istəmədən belə, ciddi şəkildə qarışdıra bilərlər. Lakin mən əminəm ki, bəzi dövlətlər və beynəlxalq dairələr hətta qarışmanı da istəyirlər... "

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

# Azərbaycan prezidentindən erməniyə sərt xəbərdarlıq

## İlham Əliyev bir daha təcavüzkara və vasitəçilərə səsləndi, "işğala, ikili standartlara son qoyun" dedi; Bakının hərbi təlimləri intensivləşdirməsinin gerçək səbəbi; **ABŞ mətbuatı:** "Azərbaycan erməni ordusunu darmadağın edəcək..."



**"Ermənistan sülh istəmir, status-kvonun dəyişilməz qalmasına çalışır, buna görə də münaqişə həll olunmur". Bunu prezident İlham Əliyev dünən Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.**

Ölkə başçısı vurğulayıb ki, keçən il həmsədr ölkələrin dövlət başçılarının iştirakı ilə təşkil olunan görüşlərdə Ermənistan özünü qeyri-səmimi aparıb, münaqişənin həllində maraqlı olmayıb, Azərbaycan ərazilərinin işğal altında saxlanmasını davam etdirib. O, bir daha qeyd edib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalı, ikili standartlara son qoyulmalıdır.

Yada salaq ki, bundan az öncə prezident, həmçinin də müdafiə naziri Zakir Həsənov erməni xalqına müraciətlə bildirmişdilər ki, əgər övladlarının boş yerə ölməsini istəmirlərsə, onları Ağdama, Füzuliyə, işğal altındakı digər Azərbaycan ərazilərinə göndərməsinlər. Elə acı statistika da ermənilərin əleyhinədir və onlara növbəti xəbərdarlıq sayla bilər.

Belə ki, təkcə bu ilin ilk aylarında düşmən tərəf özünü də etiraf elədiyi kimi, 30-dan çox hərbçisini itirib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə bir neçə dəfə çoxdur. Üstəlik, bir erməni əsgəri - Andranik Qriqoryan öz silahını ataraq könüllü şəkildə Azərbaycan tərəfə keçib.

***

Təbii ki, sülh prosesi uzandıqca münaqişə zonasında yeni müharibə ehtimalı da artmaqdadır. Bu arada ABŞ-ın "The National İnterest" jurnalı hərbi əməliyyatların bərpası mümkünlüyü haqda geniş məqalə dərc edib (Publika.az). "Harvey&Company" şirkətinin analitiki Cek Malkeyin müəllifi olduğu məqalədə öncə cəbhə xəttindəki son insidentlərə diqqət çəkilir.

"Bu gün dünyanın bir çox yerində münaqişələr alovlanıb. Ukraynada savaş davam edir və bir çox yerlərdə müharibə şəraiti qızışır. Lakin mənim fikrimcə, 2015-ci ilin ən qaynar nöqtəsi Dağlıq Qarabağ olacaq. Cənubi Qafqazda bu qeyri-müəyyən anklav zonası uğrunda Ermənistan və Azərbaycan arasında hərbi konflikt gərginləşir. Dağlıq Qarabağ Azərbaycanın qərb torpaqlarıdır... Bakı öz torpaqlarını geri istəyir. Hazırda bu ərazi ermənilərin nəzarətindədir və oradakı əhali Ermənistanın dəstəyi ilə yaradılan "DQR" tərəfindən idarə olunur. Baxmayaraq ki, atəşkəsə Rusiya vasitəçilik edir, müharibə heç vaxt rəsmən qurtarmayıb. Azərbaycan Dağlıq Qarabağın geri qaytarılması üçün mübarizə aparır və hazırkı status-kvonu qəbul etmir", - deyə yazıda bildirilir.

Müəllifə görə, iki tərəf arasında kompromis faktiki olaraq yoxdur: "Ermənistan Azərbaycan tərkibində Dağlıq Qarabağın qismən müstəqilliyini qəbul etmir və bütün əraziyə nəzarəti əldən vermək istəmir. Bütün hallarda, Azərbaycanın öz torpaqlarının kiçik bir hissəsini güzəştə gedəcəyini təsəvvür etmək çətindir. Azərbaycan prezidenti İlham Əliyev qətiyyətlə öz ölkəsinin haqlı mövqeyini tələb edir. Ermənistan üçün isə Qarabağ münaqişəsi sıfır məbləğlə oynamaqdır. Dağlıq Qarabağın ərazisi dənizə çıxışı olmayan Ermənistanın üçdə bir hissəsi qədərdir. Bununla yanaşı, münaqişə son dövrlər daha çox hərbiləşmiş formada davam edir və ciddi təhlükə yaradır".

Müəllif daha sonra yazır: "Hər iki tərəf öz ordusunu təkmilləşdirib. Erməni qüvvələri Dağlıq Qarabağın ətrafında 100 kilometrdən çox möhkəmləndirilmiş müdafiə xətti qurub. Tərəflərin səngərlər, bunkerlər və artilleriya mövqeləri ilə möhkəmləndirilmiş müdafiə xətləri bir-birindən cəmi bir neçə yüz metr məsafədədir. Ötən ilin yayından başlayaraq təmas xəttində toqquşmalar intensivləşib. Hər iki tərəf yaxın bir neçə il ərzində hərbi əməliyyatlara başlamaq üçün güclü stimullara malikdir.

Müqayisədə Azərbaycan ordusu öz üstünlükləri ilə xeyli öyünə bilər. Hansı ki, rəsmi Bakı ordunu gücləndirmək üçün milyardlarla vəsait xərcləyir. Bu gün Azərbaycan ordusu malik olduğu texnika ilə erməni piyada qoşununu ərazidən asanlıqla çıxara bilər. Azərbaycan müasir hərbi aviasiyaya malikdir və bu işdə İsraillə əməkdaşlıq edir. Azərbaycanın İsraildən aldığı pilotsuz təyyarəsi Ermənistan artilleriyasının məhv etmək üçün əvəzsiz texnikadır. Azərbaycan bu yaxınlarda Rusiyadan ağır termobarik raketlər atan dəhşətli "Tos-1A Buratino" odsaçan sistemlərini alıb. Əgər bu sistemlərin hamısı birdən işə salınsa, onlardan açılan yaylım atəşi Ermənistanın əsasən Ağdam kimi düzənlik ərazidə yerləşdirilmiş müdafiə xəttini darmadağın etmək üçün kifayətdir. Ermənistanın isə vəziyyəti çətindir. Bu ölkə və Qarabağdakı qondarma erməni rejimi Azərbaycanla müqayisəyə gəlməz dərəcədə zəifdir. Onlar zəif iqtisadi inkişaf fonunda ordunu gücləndirə bilmir. Buna görə də Ermənistan müharibədən qorxur".

Müəllif Ermənistanın müttəfiqi olduğu Rusiyaya arxalandığını da qeyd edib: "Ermənistanın üstünlüyü coğrafi landşaftın mürəkkəb olmasıdır. Belə ki, Azərbaycan ordusu Qarabağa hücum etmək üçün sərt dağlıq əraziləri keçməlidir. Düzənlik istiqamət yalnız Ağdam hesab olunur. Əgər Azərbaycan qüvvələri bu istiqamətdən ermənilərin müdafiə xəttini yarıb Əsgərana çıxsa, o zaman Qarabağın əsas şəhəri olan Xankəndinə birbaşa çıxış əldə edəcək. Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağı qaytaracağını zaman-zaman dilə gətirir və göründüyü kimi, rəsmi Bakı bu mövqeyindən geri çəkilməyəcək. Müharibə üçün hər iki tərəfdə stimullar var. Lakin Ermənistanın Azərbaycanla müqayisədə zəif olan ordusu ilə yalnız müdafiə olunmaq seçimi var".

***

Yeni müharibə ehtimalının ciddiliyini bir sıra başqa xarici və yerli analitiklər də bölüşməkdədirlər. Hətta belə versiya səslənir ki, Bakı 1-ci Avropa Yay Oyunlarını yoluna qoyandan sonra konkret olaraq Ağdam rayonun təmizlənməsi üçün blits-müharibəyə (antiterror əməliyyatı) başlaya bilər. Bundan ötrü iqlim və fəsil amilinin də əlverişli olduğu söylənilir.

Son vaxtlar Azərbaycanın işğal bölgəsi yaxınlığında, habelə Naxçıvanda, Türkiyə ərazisində qardaş ölkənin də silahlı qüvvələrinin qatıldığı, yaxud təkbaşına keçirdiyi geniş miqyaslı hərbi təlimləri intensivləşdirməsi, düşməni daha böyük itkilərə məruz qoyması, sözsüz ki, ölkəmizin hərbi cəhətdən özünü daha inamlı hiss eləməsindən xəbər verir.

**Yeri gəlmişkən, srağagün Azərbaycan Ali Baş Komandanın göstərişi və müdafiə nazirinin rəhbərliyi ilə 15 min nəfər və 200 ağır hərbi texnikanın cəlb olunduğu növbəti təlimlərə start verilib.**

❑ **Siyasət şöbəsi**

# İranla Qərb arasında anlaşma sonrası söz duelinin səbəbi

## Hər iki tərəf ənənəvi müttəfiqlərini sakitləşdirmək və rəqibi həssas durumda saxlamaq üçün təhdid yolunu tutub...



**İran və "altılıq" ölkələri arasında Lozanna anlaşmasından 10 gün keçməmiş qarşılıqlı ittihamlar yenidən başlayıb. İlk olaraq mübahisə doğuran məsələ razılaşmanın icrası ilə bağlı olub. İran tərəfi bəyan edir ki, imzalandıqdan dərhal sonra İrana qarşı sanksiyalar götürülməlidir.**

Ancaq Qərb tərəfi sanksiyaların tədricən dayandırılacağını bildirir. Bir neçə gün əvvəl Ağ ev sözçüsü Coş Ernest bəyan edib ki, yekun sənəd imzalandıqdan sonra sanksiyalar mərhələli olaraq qaldırılacaq. Ağ ev sözçüsü "bizim heç bir zaman İrana qarşı bütün embarqoların ilk gündən birdəfəlik ləğv edəcəyimizlə bağlı mövqeyimiz olmayıb".

Bu isə İran tərəfindən narazılıqla qarşılanıb. İran prezidenti Həsən Ruhani bəyan edib ki, embarqolar ləğv olunmayacağı təqdirdə İran anlaşmaya imza atmayacaq: "Bizə tətbiq olunan embarqo tamamilə qaldırılmadan heç bir anlaşmaya imza atılmayacaq. İran heç vaxt öz əleyhinə olacaq bir anlaşmaya imza atmaz".

Ruhaninin bu bəyanatı ilə eyni günlərdə Avropa Birliyi İrana qarşı daha bir sanksiya paketini qəbul edib. Belə ki AB İranın Ticarət Bankı və daha 32 şirkətinin birlik ölkələri ərazisindəki əmlakına həbs qoyulması ilə bağlı qərar çıxarıb. Qeyd edək ki, yanvar ayında Ticarət Bankı və daha 40 şirkətə qarşı embarqo iddiası məhkəmə tərəfindən rədd edilmişdi. Bəzi müşahidəçilərə görə, bu, İrana qarşı təzyiqdir.

Maraqlıdır ki, İranın ali dini lideri də son çıxışlarından birində nüvə məsələsinə toxunaraq müzakirələrə elə də müsbət yanaşmadığını, ancaq hökumətin bu fəaliyyətinə mane olmadığını bildirib. Ayətullah Əli Xameneyi ABŞ-la müzakirələrə inanmadığını deyib. Ali dini lider sanksiyaların qalxmasının şərt olduğunu qeyd edib: "Bu, çox mühüm bir mövzudur və sanksiyalar razılığa gəlindiyi gün aradan qaldırılmalıdır. Əgər bu məsələ yeni bir hala çevrilib davam etdirilərsə, müzakirələrin heç bir mənası olmayacaq. Çünki müzakirələrin hədəfi sanksiyaların dayandırılmasıdır. Heç bir halda icazə verilməməlidir ki, nəzarət bəhanəsi ilə ölkənin təhlükəsizliyinə nüfuz etsinlər. Ölkə rəsmilərinin də buna heç bir halda icazəsi yoxdur".

Qeyd edək ki, İran və "altılıq" ölkələri arasında nüvə proqramı ilə bağlı razılaşma aprelin 2-də əldə olunub. İyulun 1-dək isə yekun müqavilə imzalanmalıdır. Bu anlaşma İranın nüvə silahı əldə etməsinin qarşısını ən azı 10 il müddətində alır və bunun əvəzində BMT, o cümlədən ABŞ və AB İrana qarşı sanksiyaları götürməlidir. Ancaq göründüyü kimi, hər iki tərəfdə narahatlıq və təhdid elementləri var. Doğrudur, bu danışıqlarda əsas iki tərəf olan ABŞ və İran rəhbərliyi anlaşmanı yüksək səviyyəli "tarixi" anlaşma adlandırıblar. Ancaq görünən odur ki, hər nə qədər müsbət yanaşma olsa da, ehtiyatlılıq da var. Bəs tərəfləri bu qədər çəkingən və ehtiyatlı olmağa vadar edən amillər nədən ibarətdir?

İlk növbədə İran hakimiyyəti bununla Qərbə qarşı diplomatik təzyiq göstərərək, hər şeyin başa çatmadığı mesajını verir. Eyni zamanda daxili ictimai rəyin və müsəlman dünyasının münasibətini nəzərə alaraq bu mövzuda ehtiyatlı mövqe ortaya qoyur. Çünki İranın Qərblə anlaşması ölkə daxilində mühafizəkar dairələrdə narazılığa səbəb olub. Sonuncular hesab edirlər ki, Lozanna anlaşması İranın siyasi gücünü azaldır və indiyədək Qərblə "təkbətək savaşan" İslam Respublikasının imici zədələnəcək.

Bundan başqa, Yaxın Şərqdə baş verən proseslərdə İran faktiki olaraq Qərblə qarşıdurma vəziyyətindədir. Ötən gün ABŞ dövlət katibi Con Kerrinin Yəmən məsələsində ABŞ-ın müttəfiqlərinə dəstək verəcəyi, İranın Yəmən silahlılarına dəstəyindən xəbərdar olduqları açıqlamasını verməsi bunun bariz nümunəsidir. Öz növbəsində Qərb İranın anlaşmadan geri çəkilməməsi və eləcə də ənənəvi müttəfiqlərinə "hələ heç nəyin dəyişməədiyi" mesajını verməyə çalışıb.

**Bu mənada hazırda İran və Qərb cəbhəsindəki nüvə anlaşması mövzusundakı açıqlamaları daha çox məqsədli siyasi bəyanatlar hesab olunmalıdır. Nəinki anlaşmanın pozulmasına yönəlmiş hərəkətlər.**

❑ **KƏNAN**

**Xəbər verdiyimiz kimi, Ukrayna Ali Radası kommunist dönəmindəki KQB arxivlərinin açılmasına qərar verib. Aprelin 9-da qəbul edilən qanunla dövlət arxivindəki 1917-1991-ci illəri əhatə edən sənədlər açıq elan edilib. Qanun hər bir vətəndaşa kommunist rejiminin repressiya orqanlarının arxivinə giriş imkanı verir. Qərara iclasda iştirak edən 320 deputatdan 261-i səs verib. Qanuna əsasən, güc strukturlarının arxivlərinə hər kəsin giriş hüququna zəmanət verilir.**

# Ukraynada KQB arxivləri açılır, bəs Azərbaycanda?

Mövzu avtomatik olaraq Azərbaycan üçün də pəncərə açır. Çünki ölkəmizdə də zaman KQB arxivləri müzakirə mövzusu olub. Pribaltika ölkələrində, Avropadakı sosialist düşərgələrdə bu məsələ artıq öz həllini tapıb. İddialara görə, bir çox bəlaların kökü məhz sözügedən arxivlərdədir. Neyçün ki, arxivlər açılan kimi sözügedən ölkələrdə dövlət və siyasətdəki keçmiş agentlər vəzifələrindən getdilər. Elə biz də mövzudan çıxış edərək, sözügedən suallar ətrafında ekspertlərlə danışdıq: Niyə agentlərə siyasət yasaqlanır? Azərbaycanda arxivlərin açılması halında nə baş verə bilər? Niyə Elçibəyin 1 illik iqtidarı bunu açmadı?

Ümumilikdə geniş yayılmış fikir bundan ibarətdir ki, SSRİ dağılandan sonra DTK varisləri onun öhdəliyini yerinə yetirmirlər. Bundan başqa, SSRİ-dən sonra DTK-nın müxtəlif ölkələrdəki agentura şəbəkəsi rəqib kəşfiyyatların əlinə keçib. Bunun satılması və ya məqsədli şəkildə rəqib kəşfiyyatların əlinə verilməsi barədə dəqiq məlumat yoxdur. Çünki bu, birbaşa hər şeyin məhvi sayılırdı. Ən böyük öhdəlik isə DTK üçün işləyənlərin təhlükəsizliyini qorumaq məqsədilə adların məxfi saxlanılması idi ki, buna əməl edilmədi. Bütün agentlər, o cümlədən SSRİ ilə müttəfiq olan sosialist respublikadakılar ifşa olundu.

**"Şərq Qərb Araşdırmalar Mərkəzi"nin rəhbəri, keçmiş MTN polkovniki Ərəstun Oruclu** Ukrayna ilə bağlı baş vermiş hadisə postsovet ölkələri üçün xarakterikdir. Onun sözlərinə görə, bütün sosialist ölkələri eyni prosesi həyata keçirirlər: "Səbəb ondan doğur ki, bütün bu sənədlərin surəti Rusiyada var. Əsas mərkəz ora idi. Bir sıra hallarda bu tipli məlumatlar insanların keçmiş sovet məkanında fəal insanların yönəldilməsi, şantaj edilməsi üçün istifadə edilə bilər. Bu qanunun qəbul edilməsi indi təsadüf deyil. Bu, Rusiya təsirinin təzahürüdür".

**Müsahibimiz hesab edir ki, Azərbaycan üçün də bu arxivlərin açılması perspektivi müzakirə oluna bilər. Ə.Orucluya görə, bunun üçün dövlət komissiyası və ya başqa formada hər hansı struktur yaradılmalıdır:** "Bundan sonra mexanizmlər tapılır, o insanları dəvət edir, öz sənədləri ilə tanış edib, dillərindən iltizam alırlar. İltizam da ondan ibarət olmalıdır ki, mən xəbərdar olmuşam, tanış olmuşam, bu qanuna uyğun olaraq filan öhdəliklərim olması ilə bağlı xəbərdar edilmişəm.



**Ərəstun Oruclu:**
"Azərbaycan üçün də bu perspektiv müzakirə oluna bilər"



**İlham İsmayıl:**
"MTN-də xüsusi komissiya yaradılmalıdır"

İltizam alınıb ki, onlar mövqe tuta bilməzlər".

Ə.Oruclu dedi ki, ümumən Elçibəy iqtidarı dönəmində bu arxivləri açmağa istək olmayıb. Çünki həmin vaxt SSRİ yeni dağılmışdı və buna müxtəlif reaksiyalar ola bilərdi.

**Keçmiş MTN polkovniki İlham İsmayıl** isə dedi ki, Azərbaycan cəmiyyətində arxivlərin açılması deyəndə agentura şəbəkəsinin aşkarlanması nəzərdə tutulur. Müsahibimizin sözlərinə görə, bu şəbəkə arxivin bir hissəsidir: "Orda informasiya ilə yanaşı, əməliyyat materialları da yerləşdirilir. Onların hamısına giriş etmək olar. Bizdə isə o qanun yoxdur. Doğrudur, "Dövlət sirri haqda" Qanun var. Amma orda da qeyd olunmayıb ki, neçə ildən sonra bu məlumatlara giriş etmək olar. 1918-ci ildəki xalq cümhuriyyətindən, SSRİ dövrünədək agentura şəbəkəsinin açılması düzgün deyil. Biz kiçik bir ölkəyik. Ölkədə az qala bir-birini tanıyır. SSRİ dövründə kimi agent olmasının açılması indiki MTN sisteminin fəaliyyətini də dağıda bilər. Perspektivdə heç kimi "verbovka" etmək olmaz. Çünki agenti əvəz edən ikinci bir informasiya mənbəyi yoxdur. Bu informasiya şəbəkəsi açılsa, onları agenturadan məhrum edə bilərlər".

**İ.İsmayıl da hesab edir ki, arxivlərin açılması üçün MTN-də xüsusi komissiya yaradılmalıdır. Müsahibimizin sözlərinə görə, o komissiya hansı materialların əməliyyat əhəmiyyətini itirməsinə görə açılmasının mümkün olduğunu müəyyənləşdirməlidir:** "Son nəticədə bura daxil oma məhdudiyyəti olmamalıdır. Komissiya buna rəy verməlidir. Elçibəy dövründə də məsələ düzgün qoyulmamışdı. Deyirdilər ki, agentura şəbəkəsi açılsın. Bunu açmaq mümkün deyil. Hesab edək ki, qonşunuz DTK agenti olub. Bu fakt ortaya çıxanda ona qarşı pis münasibət yaranacaq, adam avtomatik olaraq yaşadığı yerdən köçəcək. Axı DTK agenti düşmən deyil, dövlətə xidmət edib. SSRİ dövründə kimisə siyasi baxışlarına görə satırdılar. Bu yanaşma da ona bənzəyir. Agentura şəbəkəsi dövlətin polis agentindən fərqlidir. DTK agentləri qarşısında dövlət təhlükəsizliyi ilə bağlı məsələlər qoyulur".

**Müsahibimizin fikrincə, agentura şəbəkəsindən başqa, bütün arxivlərin açılması üçün problem yoxdur. Ekspert hesab edir ki, bəzi mövzular, faktlar hələ də öz məxfiliyini qoruyur:** "Komissiya onun müddətini açmalıdır. Kimsə girsin, 90-cı ildəki informasiyaların hamısına baş vursun, bu, mümkün deyil. Milli təhlükəsizlik baxımdan əhəmiyyət daşıyan məsələləri yaddan çıxarmaq olmaz".

❑ Sevinc TELMANQIZI

# Kriminal aləmdə yeni hesablaşma: "Şakro", "Taro", "Lənkəranski"...

## Moskva ətrafında gözlənilən "oğru sxodkası" nəyi həll edəcək?



Rövşən Lənkəranski "Rufo Gəncinski"

**Kriminal aləmin nümayəndələri Moskvada "Şakro Molodoy" ləqəbli "qanuni oğru" Zaxari Kalaşovun başçılığı altında yeni böyük "sxodka" hazırlığına başlayıblar. Toplantıda kriminal aləmin "oğru" titulundan məhrum edilməsi nəzərdə tutulan konkret şəxslər haqda müzakirələr planlaşdırılır. Görüşdə 300-ə yaxın "qanuni oğru"nun iştirak edəcəyi gözlənilir.**

Yığıncaqda Tariyel Onianinin ("Taro") keçmiş və hazırkı tərəfdarları arasında nəzərdə tutulan "müharibə" haqqında müzakirələr aparılacaq.

Rusiyada və keçmiş SSRİ məkanında kriminal aləmin ən əfsanəvi fiqurlarından biri - Tariel Oniani - "Taro" 1952-ci ildə Gürcüstanda (Tkibuli) anadan olub. Oniani "oğru tacını" 1970-ci illərdə alıb. SSRİ dönəmində - 1980-cı illərdə o, Moskvada ən nüfuzlu "qanuni oğru" kimi tanınıb. "Taro"nun slavyan qruplaşmasının lideri "Yaponçik"lə arasında həmişə problem olub. 2005-ci ildə İspaniya polisinin Avropada kriminal qruplaşmalara qarşı keçirdikləri irimiqyaslı əməliyyat zamanı bir neçə gürcü "vor zakon" həbs edilsə də, "Taro" polisdən gizlənə bilib. Amma bu əməliyyatda "Şakro Molodoy" həbs edilib ki, o da sonradan Oniani ilə konfliktə girib. 2009-cu ildə Oniani Rusiyada hüquq-mühafizə orqanlarının əlinə keçib. Oniani məhkəmənin qərarı ilə 10 il azadlıqdan məhrum edilib. Bundan sonra həm "Yaponçik"in, həm də "Ded"in ölümündə əsas suçlular sırasında onun da adı çəkilir. "Moskva sxodkası"nda verilən qərarlara Oninianin də mövqeyi həlledici olacaq.



Zaxari Kalaşov



Tariyel Onianin

Qeyd edək ki, yanvarın 6-da Ermənistanın Kotayk vilayətində "vor zakon"ların toplantısı keçirilməsi barədə məlumat yayılmışdı. Məlumatda bildirilirdi ki, "Şakro" "sxodka"da 2008-ci ildən başlayaraq "qanuni oğru" adının verilməsində özbaşnalıq olduğunu deyib. "Sxodka"da belə bir qərar qəbul olunub ki, son 6 ildə "tac" almış "oğru"ların titulu sual altına alınsın "Sxodka"da azərbaycanlı "qanuni oğru" Rövşən Canıyev ("Rövşən Lənkəranski"), Georgi Uqlava ("Taxi") və Cemal Mikeladzenin ("Cemo") "qanuni oğru" adı müzakirəyə çıxarıldığı və hətta azərbaycanlı "qanuni oğru"nun titulundan məhrum edildiyi deyilirdi. Lakin sonradan məlumat yayıldı ki, İrəvan yaxınlığında keçirilən "sxodka"da iştirak edən nüfuzlu "vor zakon"lar, eləcə də "Şakro Molodoy" "Rövşən Lənkəranski"nin və "Cemo" ləqəbli Cemal Mikaladzenin "vor" titulundan məhrum edilməsinə qarşı çıxıb. "Şakro" mövqeyini belə əsaslandırıb ki, "vor zakon"un taleyi onun özünün iştirakı olmadan həll edilə bilməz.

Ötən ilin oktyabrında İspaniya həbsxanasından azadlığa buraxılan 61 yaşlı yezidi kürdü "Şakro Molodoy" çoxdandır ki, belə bir geniş tərkibli "sxodka" təşkil etməyə çalışır. Çünki Rusiya kriminal aləminin "xaç atası" sayılan "Ded Xasan"ın boş qalan taxt-tacına yiyələnmək iddiasında olan "Şakro Molodoy" mütləq gücünü göstərməlidir. "Ded Xasan"dan sonra xüsusilə onun yaxın qohumları olan yezidi kürdlər klanın əvvəlki nüfuzunu qorumağa çalışsalar da, buna nail ola bilməmişdilər. Üstəlik, klan liderinin qətlindən ötən müddətdə onun qanı da yerdə qalıb.

Yeri gəlmişkən, "Ded Xasan"ın qətli üzrə əsas şübhəli olan 12 aprel 1981-ci ildə anadan olmuş Ülfət Tağıyev ("Rüfət Gəncinski") digər cinayət üçün cəzasını ciddi rejimli koloniyada çəkməklə 8 il azadlıqdan məhrum edilib.

Amma o hələ İstintaq təcridxanasında qalmalı olacaq. Belə ki, kriminal avtoritetin qətli üzrə istintaq davam edir. 2013-cü ilin sentyabrında DİN və FTX İdarəsinin əməkdaşları onu Moskvada saxlayıblar. O, paytaxta Türkiyə vətəndaşının pasportu ilə, saxta sənədlərlə gəlib. Əməliyyatçıların məlumatına əsasən o, "Rövşən Lənkəranski"yə yaxın əhatəsinə daxil idi və o, 2012-ci ildə Dubayda "qanuni oğru" adı almışdı. "Tağıyev uzun müddət "Ded Xasan"ın əsas düşməni olan "Rövşən Lənkəranski"nin bandasının "ştatda olan" killeridir " nəşrə hüquq-mühafizə orqanlarından olan mənbə bildirib. Qeyd edilir ki, "Rüfət Gəncinski" "Ded Xasan"ın qətlinin sifarişçilərinin adını deməkdən imtina edib.

**"Rövşən Lənkəranski"nin harada olduğu bilinmir. O, mütəşəkkil cinayətkarlıq, qəsb, rüşvətxorluq, çirkli pulların yuyulması və rəsmi sənədləri saxtalaşdırmaqda təqsirli bilinir. Onun həbsi barədə İtaliya məhkəməsi xüsusi qərar çıxarıb və saxlanılması üçün İnterpola müraciət edilib.**

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

**Bu ilin əvvəlindən indiyə qədər 150 sürücü qadın sərxoş avtomobil idarə etdiyi üçün saxlanılıb. Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi Vaqif Əsədovun mətbuata verdiyi məlumata görə, keçirilən reydlər zamanı sərxoş sürücülər arasında qadınların da sayı artır. "İlin əvvəlindən bu günə qədər reydlər zamanı 150 sərxoş qadın sürücü müəyyən edilib. Çox təəssüflər olsun ki, həmin xanım sürücülər arasında ciddi qanun pozuntularına görə bir neçəsi də həbs edilib", -deyə Vaqif Əsədov bildirib.**

# Sərxoş sürücü qadınlar niyə artıb...



**Kamran Əliyev: "Burada maddi durumla bağlı məqamlar da var..."**

Yol polisi bildirib ki, polis əməkdaşlarına qarşı kobudluq edən qadın sürücülərə də rast gəlinib. Onlar barəsində də hüquq müstəvisində tədbirlər görülüb.

Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu mənzərənin yaranmasında bir neçə amil rol oynayır. Belə ki, maddi rifahın yüksəlməsi ilə bağlı ölkədə avtomobil idarə edən qadınların da sayında bir artım yaranıb. Onun sözlərinə görə, onlardan bəziləri sürücülük təcrübəsinin artması səbəbindən daha mükəmməl idarə etməyə qadir olduqlarını fikirləşib, alkoqollu içki də qəbul edirlər: "Bunların hamısı da yollarda sərxoş qadınların artmasına təsir edir. Dediyim kimi, maddi durumla bağlı məqamlar da var. İnsan bu gün fikirləşsə ki, hansısa qayda pozuntusuna görə bu cəriməni ödəmək iqtidarında deyil, bundan çəkinər. Amma dediyim kimi, bunların hamısı bir səbəb deyil. Bir neçə amilin təsiri nəticəsində xanım sürücülər də sükan arxasında alkoqollu içki qəbul edib, əyləşirdi".

**Müsahibimiz "sərxoş qadın sürücülərin sayının bu dərəcədə kəskin artımı göstərir ki, bu günə qədər reydlər zamanı qadın sürücülər saxlanılmayıb" sualına cavabda isə dedi ki, reydlər zamanı sürücülərin cins kateqoriyası nəzərə alınmır:** "Sadəcə, plan əsasında müəyyən reydlər aparılanda qadın sürücülər də aşkara oluna bilər. İçkili qadınlar hər zaman olub. Hətta bir neçə il bundan əvvəl avtoxuliqan qadınlar da vardı. Əvvəl qadın sürücülərin sayı az idi. Amma say çoxaldıqca pozuntuların da sayı artdı. O baxımdan bir-iki qadın reyd vaxtı saxlanılırdısa, qadın olmaları nəzərə alınaraq bu informasiya ictimailəşdirilmirdi. Məsuliyyətə cəlb olunurdular, amma ictimailəşdirilmirdi. Amma qadın sürücülərlə bağlı qayda pozuntuları, xüsusən də sərxoş qadın sürücülərin sayı artdıqca bunu ictimailəşdirmə zərurəti hiss etdik. Çünki öncədən sürücü xanım fikirləşirdi ki, maddi imkanım var, cərimə də ödəyə, 6 ay-1 il sürücülük hüququndan da məhrum edilə bilərəm. Bunu nəzərə alıb, içə bilərəm. Amma bunun ictimailəşdirildiyini gördükdə ola bilər ki, təsiredici vasitə kimi ona təsir etsin, hərəkətinin qarşısını alsın. Onun özünün, həyatının qorunması, digər yol hərəkət iştirakçılarının təhlükəsizliyi üçün belə profilaktik tədbirləri keçirmək vacibdir. Amma hansı xanım hansı səbəbdən içib, içməzdən əvvəl nə düşünüb, bunu psixoloqlar dəyərləndirsə, daha yaxşı olar".

> "Xanım hansı səbəbdən içib, içməzdən əvvəl nə düşünüb, bunu psixoloqlar dəyərləndirsə, daha yaxşı olar"

❑ **Sevinc TELMANQIZI**

# Manatı gözləyən təhlükə-banklarda "yenidən yüklənmə"...

## Ekspertlərin sözlərinə görə, Mərkəzi Bank baş verənlərdən yaxasını kənara çəkə bilməz...



**Manatın taleyi ilə bağlı narahatlıq və tərəddüdlər davam edir. Banklar artıq manatla kredit verməyi dayandırıblar. Mərkəzi Bank isə banklara manatla kredit verməməyi tapşırıb. Ekspertlər vəziyyətin ciddi olduğunu vurğulayırlar.**

Mərkəzi bank iki gün əvvəl manatla bağlı yayılan məlumatı təkzib edib. "Son günlərdə bəzi kütləvi informasiya vasitələrində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən banklara manatla kreditlərin verilməsinin qadağan olunması ilə bağlı həqiqətə uyğun olmayan və yanlış məlumatlar verilməkdədir",- bu barədə Mərkəzi Bankın Beynəlxalq əməkdaşlıq və kommunikasiya departamentindən bildirilib. Mərkəzi Bankdan verilən xəbərə görə, banklara manatla kreditlərin verilməsinin qadağan edilməsi ilə bağlı hər hansı bir göstəriş verilməyib: "Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar qanunvericiliyə uyğun olaraq kreditlərin hansı valyutada verilməsini müəyyən etməkdə sərbəstdirlər. Hazırda banklar həm manat, həm də xarici valyutada kreditləşməni davam etdirirlər".

Qeyd edək ki, aprelin 10-da dövlət başçısı İlham Əliyev də manatın məzənnəsindən danışıb. Dövlət başçısı Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışında manatın məzənnəsi ilə bağlı məsələyə toxunub. O, bu sahədə görülən tədbirlərin iqtisadi baxımdan səmərəli olduğunu deyib.

Qeyd edək ki, Mərkəzi Bankın İdarə Heyətinin 21 fevral 2015-ci il tarixli qərarı ilə 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,05 AZN səviyyəsində, 1 avronun rəsmi məzənnəsi isə 1,19 AZN səviyyəsində müəyyən edilib. O günə qədər ölkədə 1 AZN təxminən 0, 78 ABŞ dolları idi.

Ekspertlər isə manatla kreditin qadağan edilməsinin qanunazidd olduğunu bildirirlər. **Ekspert Nemət Əliyev** Mərkəzi Bankın təkzibini şərh edib: "Mərkəzi Bank məlumat yayaraq bildirib ki, banklara manatla kreditlərin verilməsini qadağan edən hər hansı bir göstəriş verilməyib. Hər bir halda, baş verənlərdən Mərkəzi Bank yaxasını kənara çəkə bilməz! Xarici valyutalar qarşısında milli valyutanın kəskin şəkildə ucuzlaşdıran, manatın bu gününü, sabahını şübhə altına alan, ölkənin kredit bazarını iflic həddinə gətirən Mərkəzi Bankın 21 fevral tarixli devalvasiya qərarı oldu. Əgər bu qərardan sonra xüsusən də banklar manatın sabahkı taleyinin necə olacağını açıq-aydın təsəvvür edə bilirlərsə və elə buna görə də tərəddüd içərisinə düşərək manatla kredit verməkdən çəkinirlərsə, deməli, Mərkəzi Bankın 21 fevral tarixli qərarı "qadağaya bərabər" qərardır. Heç kəs əlində olan pul-parasını itirmək istəməz, üstəlik başqasının pulu ilə heç risk etməz!".

**Ekspert Pərviz Heydərov** isə qeyd edib ki, manatın yenidən ucuzlaşması riski var: "Banklar fevralın 21-də manatın dollara nəzərən 34 faiz ucuzlaşdırılmasından sonra "yenidən yüklənmə" vəziyyətindədirlər. Fikrimcə, bu, müvəqqəti xarakter daşıyır. İlin ikinci yarısında vəziyyət sabitləşəcək. Ancaq manatın yenidən- ikinci dəfə ikirəqəmli şəkildə ucuzlaşdırılması baş verərsə, bankların "yenidən yüklənməsi" prosesi növbəti dəfə də təkrar edilmək məcburiyyəti qarşısında qalacaq. O zaman bütün bank sisteminin "format" olunmasına tələb olunacağı təhlükəsi ortaya çıxacaq. Ancaq belə bir ehtimal az inandırıcı görünür. Məncə, kommersiya banklarımızın manatın dollara nəzərən tədricən ucuzlaşdırılması tendensiyasına adaptasiya prosesini gözləmək gərəkdir".

**Ekspert Samir Əliyev** isə bildirib ki, manatın məzənnəsi dünyada neftin qiymətindən və hökumətin atacağı addımlardan asılıdır. Belə ki, hadisələr necə inkişaf edərsə, vəziyyət o cür də davam edəcək: "Düşünürəm ki, neft bahalaşarsa, 70 dollar həddini keçərsə, manat sabitləşəcək, hətta müəyyən qədər bahalaşa da bilər. Əgər neft 30-40 dollara düşərsə, kəskin devalvasiyanın olması gözlənilir. Devalvasiya istənilən halda baş verəcək. Kəskin yox, daha çox yumşaq devalvasiya baş verəcək. Görünür ki, cüzi də olsa hazırda devalvasiya gedir".

**Ekspertin sözlərinə görə, bu il seçki ili olduğundan hökumət kəskin devalvasiyaya getməyəcək:** "Əgər hökumət büdcə xərclərini azaldarsa, bu devalvasiyaya təzyiqi azalda da bilər. Eyni zamanda burada Mərkəzi Bankın davranışı da var. Mərkəzi Bank manat kütləsini və uçot dərəcələrini artırarsa, bu mümkün qədər manata dəstək ola bilər. Əgər fövqəladə bir hal baş verməsə, ən azı ilin sonuna qədər manatın kəskin devalvasiyası baş verməyəcək. İlin sonuna qədər dollar 1 manat 20 qəpiyədək bahalaşa bilər". Ekspertin banklardan dollarla kredit götürənlərə də tövsiyəsi var: "Müqavilə müddətinin uzadılması aylıq ödənişi yüngülləşdirir. Məsləhət görərdim imkan varsa kreditlərini tamamilə bağlasınlar. Hazırda manatla kredit almaq da çətinləşib ki, vətəndaşlar alıb dollarla olan kreditlərini bağlasınlar. Çalışsınlar kreditin müddətini uzatmasınlar".

❑ **RÖYA**

# Erməni layihəsi - "Comedy Woman" Bakıya niyə gətirilir?

## **Zahid Oruc:** "Bu kimi olayları bir təsadüf kimi qəbul edirəm"



Zahid Oruc

**Erməni layihəsi olduğu iddia olunan "Comedy Woman" intellektual yumoristik qadın klubunun Bakıda keçirəcəyi konsertlə bağlı məlumatlar gündəmi zəbt edib. Sözügedən layihədə erməni millətinə mənsub Artur Canibekyan, Qarik Martirosyan və digərləri iştirak edirlər. Məlumata görə konsert 23 mayda "Buta Palace"də baş tutmalıdır. Məsələ ilə bağlı "Buta Palace"ın meneceri ilə əlaqə saxlamağa çalışsaq da, deyildi ki, menecer üzrlü səbəbdən iş başında deyil. Məkanda keçiriləcək tədbir və konsertlər haqqında isə başqa şəxsin məlumat vermək iqtidarında olmadığı qeyd edildi.**

Ermənilərə aid olduğu deyilən layihənin paytaxt Bakıda, özü də nüfuzlu bir məkanda keçirilməsi hansı zərurətdən yaranır?

Yeri gəlmişkən, bugünlərdə paytaxtın mərkəzində nüfuzlu kafedə türk-müsəlman qatili - erməni Andranikin şəkilinin təbliğ edilməsi və bu kimi olaylar onu göstərir ki, düşmənlərimiz artıq içərimizə doğru hərəkət etməyə nail olurlar...

"Bakılı oğlanlar" (KVN) komandasının üzvləri Tahir İmanov və Bəhram Bağırzadə də "Comedy Woman"in Bakıda keçiriləcək konsertini pisləyərək dövlət orqanlarını bu məsələyə ciddi çağırıblar.

**Millət vəkili Zahid Oruc** məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bəzi ermənilərə qarşı daha fərqli münasibət bəslənməlidir: "Dağlıq Qarabağdakı yeni nəsil ermənilərinə, yəni hansı ki, onlar torpaqlarımızın işğalında, vandalizmdə iştirak etməyiblər, onlara qarşı bir qədər başqa münasibət göstərməliyik. Təbii ki, münaqişə həll olunmadan ermənilərlə mədəniyyət, idman və s. bu kimi əlaqələrdə isti münasibət göstərilməsinin də tərəfdarı deyiləm, lakin unutmaq olmaz ki, biz özümüzü dünyaya daha sülhpərvər təqdim etməliyik, nəinki "erməni harda görsəm öldürüm" fikrinin daşıyıcısı kimi. Tariximizin istənilən dövründə ermənilər azərbaycanlılara qarşı qətllər törədib, vəhşiliklər edib. Bu hadisələri istəsək də unuda bilmərik.

Hansısa kafedə Andranikin şəklinin təbliğ edilməsi, erməni layihəsi olan "Comedy Woman"nın Bakıya gətirilməsi və bu kimi olayları isə bir təsadüf kimi qəbul edirəm. Bu heç də Azərbaycan cəmiyyətini erməni sindromundan çıxartmaq məsələsi deyil".

"Yeni Müsavat" "Comedy Woman" intellektual yumoristik qadın klubu haqqında kiçik araşdırma aparıb. Məlum olub ki, adıçəkilən klub Rusiyanın THT televiziya kanalında yayımlanan şou layihədir. Layihənin ilk premyerası 2008-ci ildə baş tutub.

**Projenin əsas yaradıcı heyəti - ideya müəllifi və prodüser Natalya Eprikyan, prodüser Artur Canıbekyan, qonaq qismində layihədə iştirak edənlərdən Ararat Keşyan, Mixail Qalustyan, Qarik Matriosyandır.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

# ASALA-nın təhdidi realdırmı?

## Arzu Nağıyev: "Bizim Dağlıq Qarabağ qədər böyük problemimizin müqabilində belə bəyanatlar çox gülünc görünür"

**Xəbər verdiyimiz kimi, erməni terror təşkilatı ASALA (ingiliscə tərcümədə "Ermənistanın azadlığı üçün gizli erməni ordusu") Türkiyəni təhdid edib. Təşkilatın adından yayılan bəyanatda bildirilir ki, aprelin 24-nə Türkiyədə Çanaqqala zəfər bayramının qeyd olunması "həlak olan 1.5 milyon erməninin ruhuna təhqir hesab edirik. Biz bütün azad düşüncəli xalqları Ərdoğanın bu təxribatına qarşı çıxmağa çağırırıq. Əgər Ərdoğanın bayramı baş tutsa, ASALA Türkiyəyə qarşı hərbi əməliyyatları bərpa edəcək".**




Çanaqqala zəfərini təmtəraqlı şəkildə qeyd etmək qərarı Azərbaycan prezidentinin Türkiyəyə səfəri zamanı elan olunub və iki ölkə prezidentinin verdiyi mesajlar da onu göstərirdi ki, tədbirin bu günə təyin olunması ermənilərin saxta soyqırımı yalanlarına cavab məqsədi daşıyır. Yəni Türkiyə və Azərbaycan bayram tədbirlərinə daha çox ölkədən rəsmilər dəvət etməklə, ermənilərin İrəvanda planlaşdırdıqları saxta soyqırımı tamaşası planını pozacaq. 100-dən artıq ölkənin rəhbər şəxslərinə dəvət göndərilib ki, bir çoxunun da Türkiyədəki bayram tədbirlərinə qatılmaqla bağlı müsbət cavabı artıq var.

**Bu isə heç şübhəsiz ki, erməniləri qıcıqlandırır.** Çünki ermənilər uzun müddətdir "soyqırımın 100 illiyinə" hazırlaşır. Dünyanın bir çox ölkələrinə dəvətlər göndərilib. İndi isə Türkiyə faktiki olaraq bu planı pozduğu üçün ermənilərin qəzəblənməsi anlaşılandır. ASALA-nın Türkiyəyə, eləcə də böyük ehtimalla Azərbaycana qarşı təhdidi kifayət qədər ciddi sayıla bilər. Çünki bu təşkilatın tarixçəsi bunu sübut edir.

**ASALA terror təşkilatı 1975-ci ildə Livanda vətəndaş müharibəsi zamanı yaranıb.** Livanın paytaxtı Beyrutda Fələstin Azadlıq Təşkilatının (FAT) da dəstəyi ilə Akop Akopyanın rəhbərliyi altında yaradılıb. Təşkilatın əsas ideyasının "erməni ideyasının dünyaya tanıdılması" və erməni millətçiliyinin yüksəldilməsi olsa da, bu təşkilat dünyada terrorçu qrup kimi tanınıb. 1980-ci ildə təşkilat ABŞ hökuməti tərəfindən terrorçu təşkilat siyahısına salınıb. Sonradan təşkilatın fəaliyyəti müəyyən səbəblərdən zəifləsə də, 2001-ci ildə isə ABŞ ASALA-nı "Xarici terror təşkilatı" siyahısına salınıb. Bundan başqa ASALA Britaniya, Avstraliya, Kanada, Avropa Birliyinin və Rusiyanın müvafiq terror təşkilatları siyahısına salınıb. ASALA-nın ən aktiv terror fəaliyyəti 1975-85-ci illərdə olub. 10 il ərzində erməni terrorçuları 16 ölkədə əsasən Türkiyənin diplomatik nümayəndəliklərinə, səfirliklərə terror hücumları həyata keçirib. Bu ölkələrdə həyata keçirilən müxtəlif növ 84 terror aksiyası zamanı 46 nəfər ölüb, 299 nəfər isə yaralanıb. Ölənlərdən 33 nəfəri türk diplomatdır. 1983-cü ildə təşkilat parçalansa da, 90-cı illərdə Qarabağda gedən savaşda ASALA-nın bir çox fəalları, o cümlədən Monte Melkumyan iştirak edib. 1994-cü ildən sonra ASALA ümumiyyətlə zəifləyib. Bu isə mümkündür ki, Dağlıq Qarabağda yerləşən terrorçuların gizlənmək üçün uyğun məkan tapmaları ilə bağlıdır.

**Qeyd edək ki, ASALA-ya əsas zərbəni Türkiyə kəşfiyyatı və könüllü millətçi gənclər (ülkücülər) vurub.** 1980-ci illərdə ASALA Avropa və Amerika qitəsində Türkiyə diplomatlarına qarşı silsilə terror hücumları həyata keçirir. Buna qarşı Türkiyə kəşfiyyatı - MİT yeni bir taktika uyğulayır. ASALA-nın "öz metodu" ilə özünü vurmaq. Bu məqsədlə türkiyəli gənclər cəlb olunur. O zamankı prezident Kənan Evrenin tapşırığından sonra MİT Avropada ASALA-nı "ovlamaq işinə" başlayır. Bu məqsədlə Avropadakı millətçi gənclərlə iş qurulur. Türk qisasçılarının İsveçrə, Fransa və Yunanıstanda ard-arda həyata keçirdiyi qisas əməliyyatları nəticəsində, ASALA-nın, o cümlədən Daşnak Partiyasının ofisləri partladılır, bir çox liderləri, o cümlədən Akop Akopyan 1986-cı ildə öldürülür. Bundan sonra prosesin böyüyərək qanlı müharibəyə çevrildiyini görən Qərbi Avropa dövlətləri terrorun daha da böyüməməsi üçün ASALA və digər erməni qruplaşmalarına dəstəyi dayandırır. Fransada ASALA mərkəzinə keçirilən əməliyyatda isə sonradan əfsanəyə çevrilmiş Abdullah Çatlının adı gedir. A.Çatlı ASALA-ya qarşı 5 aksiyada iştirak edib.

**Qeyd edək ki, Azərbaycanda da erməni terroruna qarşı ciddi özünümüdafiə hərəkatı olub.** 1905-ci ildə yaradılan Difai (Difa ərəbcə müdafiə sözündəndir) Təşkilatının əsas hədəfi Qafqaz ərazisində ermənilərin azərbaycanlılara qarşı hücumlarının qarşısını almaq, eləcə də azərbaycanlılara qarşı amansız olan Çar Rusiyası məmurlarını cəzalandırmaq məqsədi ilə yaradılmış təşkilat 12 ilə yaxın müddət ərzində erməni quldurlarına və rus məmurlarına qarşı qanlı qisas əməliyyatları həyata keçirib.

ASALA-nın uzun illər "yuxudan" sonra Türkiyəni təhdid etməsi nə anlama gəlir? Təhlükə realdırmı? **Politoloq Arzu Nağıyev** deyir ki, ASALA sonuncu dəfə 1993-cü ildə terror təhdidi olub, amma ondan sonra sakitləşib. Ekspert deyir ki, bu cür hədə bəyanatları əslində Ermənistan xüsusi xidmətlərinin sifarişidir: "ASALA son dəfə 1993-cü ildə "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəklərini bəyan etsə də, planları baş tutmadı. Yəni bir müddət idi ki, bəyanatları da yox idi. Lakin 24 aprel Çanaqqala qələbəsi ilə bağlı keçiriləcək tədbirə qoşulacaq dövlətlərə qarşı terror təhdidi edirlər. Düşünürəm ki, sadəcə olaraq öz havadarları tərəfindən, Ermənistanın rəsmi dairələri, daha doğrusu xüsusi xidmət orqanları tərəfindən və demək olar ki, PKK-nın da adından belə bəyanatlar verirlər. 24 aprel ərəfəsində bunların belə bəyanatları daima olub. Həmin tədbirdə iştirak edəcək dövlətlərin hər birinin tək ASALA yox, onun kimi bir çox terror təşkilatlarına adekvat cavab vermək imkanı və gücü vardır. Necə deyərlər, "atılan əlcək" öz cavabını alacaq və qəbul edilir və düşünürəm ki, bu bəyanatdan o yana keçməyən növbəti bir təxribat addımıdır. Bizim Dağlıq Qarabağ qədər böyük problemimizin müqabilində belə bəyanatlar çox gülünc görünür".

❑ **KƏNAN**

# "Azərbaycan erməni ordusunu darmadağın edəcək"

## "The National İnterest" jurnalı: "Dağlıq Qarabağ Azərbaycanın qərb torpaqlarıdır"

**ABŞ-ın "The National İnterest" jurnalı Azərbaycanla Ermənistan arasında "gələcək müharibə" haqda geniş məqalə dərc edib. Publika.az xəbər verir ki, "Harvey&Company" şirkətinin analitiki Cek Malkeyin müəllifi olduğu məqalədə cəbhə xəttində son insidentlərə diqqət çəkilir.**

"Bu gün dünyanın bir çox yerində münaqişələr alovlanıb. Ukraynada savaş davam edir və bir çox yerlərdə müharibə şəraiti qızışır. Lakin mənim fikrimcə, 2015-ci ilin ən qaynar nöqtəsi Dağlıq Qarabağ olacaq. Cənubi Qafqazda bu qeyri-müəyyən anklav zonası uğrunda Ermənistan və Azərbaycan arasında hərbi konflikt gərginləşir. Dağlıq Qarabağ Azərbaycanın qərb torpaqlarıdır. 1990-cı illərin əvvəllərində xristian ermənilərlə müsəlman azərbaycanlılar arasında etnik qarşıdurma baş verdi və burdan yüz minlərlə azərbaycanlı köçürüldü. Ermənilər nəticədə qalib olan olundular. Lakin daha sonra hər iki ölkə müstəqilliyini möhkəmləndirdi. Bakı öz torpaqlarını geri istəyir. Hazırda bu ərazi ermənilərin nəzarətindədir və oradakı əhali Ermənistanın dəstəyi ilə yaradılan "DQR" tərəfindən idarə olunur. Baxmayaraq ki, atəşkəsə Rusiya vasitəçilik edir, müharibə heç vaxt rəsmən qurtarmayıb. Azərbaycan Dağlıq Qarabağın geri qaytarılması üçün mübarizə aparır və hazırkı status-kvonu qəbul etmir", - deyə məqalədə bildirilir.

**Müəllif "Dağlıq Qarabağı xüsusilə nə təhlükəli edir?" deyə qeyd edib:** "İki tərəf arasında kompromis faktiki olaraq yoxdur. Ermənistan Azərbaycan tərkibində Dağlıq Qarabağın qismən müstəqilliyini qəbul etmir və bütün əraziyə



nəzarəti əldən vermək istəmir. Bütün hallarda, Azərbaycanın öz torpaqlarının kiçik bir hissəsini güzəştə gedəcəyini təsəvvür etmək çətindir. Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətlə öz ölkəsinin haqlı mövqeyini tələb edir. Ermənistan üçün isə Qarabağ münaqişəsi sıfır məbləğlə oynamaqdır. Dağlıq Qarabağın ərazisi dənizə çıxışı olmayan Ermənistanın üçdə bir hissəsi qədərdir. Bununla yanaşı, münaqişə son dövrlər daha çox hərbiləşmiş formada davam edir və ciddi təhlükə yaradır.

**Hər iki tərəf öz ordusunu təkmilləşdirib.** Erməni qüvvələri Dağlıq Qarabağın ətrafında 100 kilometrdən çox möhkəmləndirilmiş müdafiə xətti qurub. Tərəflərin səngərlər, bunkerlər və artilleriya mövqeləri ilə möhkəmləndirilmiş müdafiə xətləri bir-birindən cəmi bir neçə yüz metr məsafədədir. Ötən ilin yayından başlayaraq təmas xəttində toqquşmalar intensivləşib. Hər iki tərəf yaxın bir neçə il ərzində hərbi əməliyyatlara başlamaq üçün güclü stimullara malikdir.

**Müqayisədə Azərbaycan ordusu öz üstünlükləri ilə xeyli öyünə bilər.** Hansı ki, rəsmi Bakı ordunu gücləndirmək üçün milyardlarla vəsait xərcləyir. Bu gün Azərbaycan ordusu malik olduğu texnika ilə erməni piyada qoşununu ərazidən asanlıqla çıxara bilər. Azərbaycan müasir hərbi aviasiyaya malikdir və bu işdə İsraillə əməkdaşlıq edir. Azərbaycanın İsraildən aldığı pilotsuz təyyarəsi Ermənistan artilleriyasının məhv etmək üçün əvəzsiz texnikadır. Azərbaycan bu yaxınlarda Rusiyadan ağır termobarik raketlər atan dəhşətli "Tos-1A Buratino" odsaçan sistemlərini alıb. Əgər bu sistemlərin hamısı birdən işə salınsa, onlardan açılan yaylım atəşi Ermənistanın əsasən Ağdam kimi düzənlik ərazidə yerləşdirilmiş müdafiə xəttini darmadağın etmək üçün kifayətdir. Ermənistanın isə vəziyyəti çətindir. Bu ölkə və Qarabağdakı qondarma erməni rejimi Azərbaycanla müqayisəyə gəlməz dərəcədə zəifdir. Onlar zəif iqtisadi inkişaf fonunda ordunu gücləndirə bilmir. Buna görə də Ermənistan müharibədən qorxur".

**Müəllif Ermənistanın müttəfiqi olduğu Rusiyaya arxalandığını qeyd edir.**

"Ermənistanın üstünlüyü coğrafi landşaftın mürəkkəb olmasıdır. Belə ki, Azərbaycan ordusu Qarabağa hücum etmək üçün sərt dağlıq əraziləri keçməlidir. Düzənlik istiqamət yalnız Ağdam hesab olunur. Əgər Azərbaycan qüvvələri bu istiqamətdən ermənilərin müdafiə xəttini yarıb Əsgərana çıxsa, o zaman Qarabağın əsas şəhəri olan Xankəndinə birbaşa çıxış əldə edəcək. Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağı qaytaracağını zaman-zaman dilə gətirir və göründüyü kimi, rəsmi Bakı bu mövqeyindən geri çəkilməyəcək. Müharibə üçün hər iki tərəfdə stimullar var. Lakin Ermənistanın Azərbaycanla müqayisədə zəif olan ordusu ilə yalnız müdafiə olunmaq seçimi var", - deyə Cek Malkey qeyd edir.

# Moldova ombudsmanının hərbi tribunal təklifi təqdir olundu

**Azərbaycan həqiqətlərinin dəstəklənməsində və dünyaya yayılmasında cəsarətli mövqe tutan, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, Xocalı soyqırımını törətdiyini hətta İrəvanda ermənilərin gözünün içinə baxaraq deyən Moldovanın parlament vəkili, ombudsman Aureliya Qriqoriu növbəti dəfə prinsipial mövqe nümayiş etdirib.**


Aureliya Qriqoriu

Xanım Qriqoriunun sözlərinə görə, Xocalı soyqırımı üzrə beynəlxalq tribunal yaratmaq lazımdır ki, bu faciəyə görə cavabdeh olanlar cinayət məsuliyyətinə cəlb edilsinlər. Bu həftə Bakıda səfərdə olan xanım Aureliya Ermənistanın azərbaycanlılara qarşı törədikləri soyqırımı, eləcə də Xocalı soyqırımını nəzərə almayaraq yalançı "erməni soyqırımı"nın təbliğatını davam etdirməsi məsələsini şərh edərkən deyib.

O, daha sonra belə deyib: "Hesab edirəm ki, Xocalı soyqırımının araşdırılması üzrə xüsusi beynəlxalq tribunal yaratmaq lazımdır, çünki cinayətkarların adları bizə yaxşı məlumdur və onlar cinayət törətdiklərini gizlətməyiblər. Hazırda bu məlumatı silməyə çalışırlar ki, məhkəmədə sübut kimi istifadə olunmasın". A.Qriqoriu bildirib ki, bu tribunalı yaxın vaxtlarda yaratmaq lazımdır, çünki həmin hadisələrin şahidləri hələ ki, həyatdadırlar: "Niyə ermənilər qondarma "erməni soyqırımı" məsələsini guya "soyqırım"ın baş verməsindən daha gec gündəmə gətirdilər? Çünki heç bir sübut, tarixi fakt, yazılı sənədlər, jurnalist dəlilləri yoxdur. Biz bilirik ki, Türkiyənin arxivləri açıqdır, tarixçilər işləyirlər və onların arxivlərdə tapdıqları sənədlər təsdiq edir ki, heç bir soyqırım olmayıb, əksinə, ermənilər türk xalqına qarşı yaramaz hərəkətlər ediblər".

**Parlament vəkilinin sözlərinə görə, ermənilər onu təqib edir, zəng edir və hədələyirlər:** "Bu yaxınlarda Moldova-Ermənistan Cəmiyyətinin sədrinin Ermənistan mətbuatında yayılan məqaləsində bildirilirdi ki, ermənilər mənim Azərbaycanı dəstəkləməyə davam etdiyimi izləyirlər. Bu o deməkdir ki, onlar mənimlə hesablaşmağın yolunu mütləq tapacaqlar. Mən daim bu vəziyyətdə yaşayıram".

"Belə ədalətli mövqe üçün mən xanım ombudsmana olduqca minnətdaram. Görünür o, çox ədalətli şəxsiyyətdir". **Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** bunu "Yeni Müsavat"a A.Qriqoriunun mövqeyini şərh edərkən bidirdi. Lakin politoloq ənənəvi mövqeyini bir daha xatırladaraq qeyd etdi ki, rus imperiyası dağılmayınca bu kimi ideyalar həyata keçən deyil: "Xocalı soyqırımının da, bizim torpaqların işğalının da, Azərbaycanla Ermənistan arasında qanlı düşmənçiliyin yaradılmasının da arxasında rus imperiyası dayanır. Rusiya Azərbaycan xalqının ərazisində azərbaycanlılara düşmən olan dövlət və millət yaradıb. Rus imperiyası erməniləri Azərbaycana əbədi düşmən kimi gətirib. Ona görə mən bizim əlaqələrin gələcəyinə də şübhə edirəm. Yalnız o vaxt münasibətlər düzələ bilər ki, erməniləri bu cür saxlayan imperiya yox olsun".

V.Quluzadə deyir ki, belə şəraitdə Qarabağ məsələsi ətrafında cərəyan edən proseslər gözə kül üfürməkdir: "Çünki mahiyyət dəyişmir. Amma mən xanımın bu təşəbbüsünü alqışlayıram. Qoy məhkəmə yaradılsın, görək Sərkisyan və ya Köçəryanı mühakimə edə biləcəyikmi? Dünyada bir çox cinayətlər var ki, hamı bilir, amma tədbir görmür. Azərbaycana qarşı cinayətlər də bu sıradandır".


**Vəfa Quluzadə:** "Dünyada bir çox cinayətlər var ki, hamı bilir, amma tədbir görmür"


**Üzeyir Cəfərov:** "Azərbaycan həqiqətlərinə ikili reaksiyasından asılı olmayaraq, biz bunu çoxdan tələb etməliydik"

**Hərbi ekspert Üzeyir Cəfərov** da moldovan ombudsmanın bu təşəbbüsünü təqdir etdi: "Azərbaycan xalqının həqiqi dostlarından biri və dünyada Tanrının haqq sözünü kimliyindən və harada olmasından asılı olmayaraq, deməyi bacaran, hətta mən deyərdim ki, çox siyasətçi kişilərdən qətiyyətli olan ombudsman Aureliya Qriqoriunun sözlərini tam dəstəkləyirəm. Ermənistanın azərbaycanlılara qarşı törədikləri 31 mart soyqırımı, eləcə də Xocalı soyqırımı ilə bağlı bizim çoxdan həyata keçirməli olduğumuz bu işi xanım dostumuz sadəcə yenidən səsləndirib və sonadək bu mübarizədə getməyin vacib olduğunu bizə xatırladıb. Bəli, bəşər tarixinin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımının araşdırılması üzrə xüsusi beynəlxalq tribunal yaratmaq lazımdır və bu indi də bəzi səbəblərdən mümkün olmasa da, ümid edirəm ki, nə vaxtsa bunu edəcəklər, bu, qaçılmazdır. Çünki konkret cinayətkarların adları da bizə məlumdur və onlar özləri də etdikləri bağışlanılmaz cinayəti çox yerlərdə etiraf ediblər".

**Ü.Cəfərovun sözlərinə görə, dünyanın Azərbaycan həqiqətlərinə ikili reaksiyasından asılı olmayaraq, biz bunu çoxdan tələb etməliydik:** "Başa düşürəm ki, dünyada çox böyük ədalətsizliklər var, amma istənilən halda biz bir xalq olaraq bunu etməliyik ki, gələcək nəsil bədnam qonşularımızın növbəti fitnə-fəsadından sığortalansın. Bunu bizdən qətlə yetirilən o məsum körpələrin, qız-gəlinin, ana-bacıların, köməksiz vəhşicəsinə, işgəncələrlə öldürülmüş atalarımızın, qardaşlarımızın ruhu tələb edir".

# "KTMT Ermənistanın müdafiəsinə cavabdehdir, Dağlıq Qarabağın yox"

## Elxan Şahinoğlu: "Rusiyalı rəsmilərin və diplomatların ermənipərəst açıqlamalarına susduqca, onlar daha çox üzərimizə gələcəklər..."


Elxan Şahinoğlu

**Cari ilin ilk aylarında aralarında soyuq küləklər əsən, xüsusilə də Gümrü hadisələrindən sonra kritik həddə çatan Rusiya-Ermənistan münasibətlərindəki gərginlik nisbətən səngiyib. Hər halda hər iki ölkə rəsmilərinin son vaxtlar verdiyi açıqlamalar bu mənzərəni ortaya çıxarır.**

Bir neçə gün əvvəl Moskvada səfərdə olan Ermənistanın Xarici İşlər naziri Edvard Nalbəndyan hətta Moskvanın Qarabağ məsələsində İrəvana dəstək olacağını iddia edib. "Rusiya Dağlıq Qarabağ konfliktinin həll olunması üçün fəaliyyətini davam etdirəcək", - deyə, o, bildirib. Erməni nazir ruisyalı həmkarı Lavrovla görüşü zamanı Cənubi Qafqazdakı situasiyanı dəyərləndirdiklərini bildirib. Qeyd edək ki, Nalbəndyan az öncə Putinin yaxın zamanlarda İrəvana səfər edəcəyini bildirmişdi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə erməni həmkarı ilə Moskvada düzənlədiyi birgə mətbuat konfransında deyib ki, Dağlıq Qarabağda müharibəni təsəvvür etmir.

Hələlik rəsmi Bakı rusiyalı nazirin mövqeyini şərh etməyib. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev E.Nalbəndyanın Moskvada keçirdiyi mətbuat konfransında söylədiyi fikirlərini şərh edərək bildirib ki, beynəlxalq sənədlərdə Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılması tələb olunur. "Ermənistan xarici işlər naziri bu bəyanat ilə əslində ölkəsinin rəhbərliyinin danışıqlar prosesində yalana və möhtəkirlik əsasında yürütdüyü siyasətini bir daha ifşa edir. Ona görə də məqsədyönlü şəkildə danışıqlar prosesini pozan və Azərbaycana qarşı işğal və təcavüz nəticəsində yaranan mövcud status kvonu saxlamağa çalışan Ermənistana münasibətdə sülhə məcburedici mexanizmlər, o cümlədən sanksiyaların tətbiq edilməsi ciddi surətdə nəzərdən keçirilməlidir", - deyə, açıqlamada qeyd olunur.

**"Atlas"Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** Rusiya XİN başçısının mövqeyi barədə "Yeni Müsavat"a bildirdi ki, Rusiya keçmiş dövrlərdə olduğu kimi Azərbaycanla yenə böyük qardaş kimi davranmaq istəyir: "Yeni açıq şəkildə deyir ki, mən nəyi məsləhət görürəmsə onu da elə. Bu, Lavrovun mətbuat konfransında Azərbaycana ünvanladığı birinci mesajı idi. Müharibə bizim haqqımızdır və indiki şərtlər altında bu haqqı beynəlxalq hüquq da tanıyır. Lavrov Bakıya ikinci sətiraltı mesajında erməni jurnalistin sualına cavab olaraq deyib ki, müharibə başlayacağı təqdirdə Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsinin şərtləri daxilində Ermənistana nə lazımdırsa, o cür də kömək edəcək. Yeni Lavrovun hədəfində yenə Azərbaycandır".

**E.Şahinoğlu hesab edir ki, Azərbaycan Xarici İşlər Nazirliyi Lavrovun Nalbandyanla birgə mətbuat konfransında söylədiyi açıqlamalara reaksiya verməlidir:** "Azərbaycan XİN-nin bəyanatında Lavrovun diqqətinə çatdırılmalıdır ki, Azərbaycanın Ermənistana hücum etmək kimi planı yoxdur. Bu baxımdan Kollektiv Təhlükəsizlik Müqaviləsi çərçivəsində Rusiyanın Ermənistanı müdafiəsinə ehtiyac da qalmır. Azərbaycan işğal altındakı torpaqlarını azat etmək istəyir, bu torpaqların isə Ermənistana dəxli yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı isə Ermənistanın müdafiəsinə cavabdehdir, Dağlıq Qarabağın yox. Rusiyalı rəsmilərin və diplomatların ermənipərəst açıqlamalarına susduqca, onlar daha çox üzərimizə gələcək və zənn edəcəklər ki, Azərbaycan Rusiyadan bütün mənalarda qorxur. Rəsmi Bakı balanslaşdırılmış xarici siyasət yürüdür. Bu isə lorudildə desək, o deməkdir ki, hamıya eyni gözlə baxırıq, dosta-dost, düşmənə-düşmən kimi yanaşırıq. Bəli, Rusiya ilə normal münasibətlərdən yanayıq, ancaq bu, o demək deyil ki, Moskvanın işğalçı Ermənistana hərtərəfli dəstəyinə dözməliyik".

**Politoloq digər bir fakta da diqqət çəkdi:** "Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin İrəvan səfərində deyir ki, "erməni soyqırımının" tanınması siyasətində erməni xalqının yanındadırlar. Bir başqa rusiyalı deputat "soyqırımın" dünya miqyasında tanınmasında İrəvana hər cür dəstək verəcəklərini bildirir. Əslində Dövlət Duması "soyqırımı" hələ çox əvvəl tanıyıb, görünür, ermənilərə indi bir az da artıq dəstək vermək istəyirlər. Bu azmış kimi Rusiya dövlət kanalı olan "RTR"-də analitik proqramın aparıcısı Dmitriy Kiselyov bazargünkü verilişdə dedi ki, Rusiya "erməni soyqırımını" tanıdığı halda ABŞ hələ belə bir addım atmayıb. İndi guya Kiselyov özlüyündə bununla ABŞ-ı hədəf seçib. Əslində isə hədəf Türkiyə və Azərbaycandır. Çünki saxta "soyqırımın" beynəlxalq aləmdə tanınması əleyhinə ən çox çıxış edən Türkiyə və Azərbaycandır. Bu, o iki ölkədir ki, Moskva sözdə hər ikisi ilə sıx tərəfdaşlıqdan yana olduğunu açıqlayır. Kiselyov sıradan bir jurnalist deyil, Rusiya prezidenti Vladimir Putinin əsas media silahıdır. Kiselyov yaxınlarda Azərbaycana da gəlmiş və rəsmi səviyyədə qəbul olunmuşdu. Göründüyü kimi, Rusiya ilə münasibətlərdə biz balansı gözləyirik, Moskva isə Ermənistanı əlində saxlamaq üçün Azərbaycanın maraqlarına diqqət yetirmir".

**E.Şahinoğlu dedi ki, əgər belə olmasaydı Putin 24 apreldə İrəvana getməyə hazırlaşmazdı:** "Kreml sahibi Türkiyə və Azərbaycanla münasibətləri nəzərə almadan İrəvana gedir. Putin heç olmazsa Fransa prezidenti Fransua Olland kimi İrəvanın ardından Bakıya da gələ bilərdi ki, balansın pozulmadığına işarə etsin. Ancaq yox, Putin Ollandan fərqli olaraq İrəvandan Moskvaya qayıdacaq. Fransanı ermənipərəst dövlət adlandırırıq, ancaq Rusiya ermənipərəstlikdə ondan da irəlidədir. Moskva necə ki, "yumşaq güc"lə Ermənistanı, Qazaxıstanı və Belarusu idarə edir, eləcə də Azərbaycanı bu siyahıya daxil etmək istəyir".

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

# Uydurma soyqırımın ildönümü ərəfəsi təhlükəsizlik tədbirləri gücləndirilib, ancaq...

## Metro girişlərində nəzarətçilərin diqqətindən yayınıb tunelə düşmək imkanları hələ də qalır...

**Aprelin 24-ü qondarma erməni soyqırımının 100-cü ildönümüdür. Bu tarix yaxınlaşdıqca paytaxtda əlavə təhlükəsizlik tədbirlərinin gücləndirildiyi müşahidə edilir. Məntiqlidir, çünki ermənilərdən ölkəmizə qarşı hər cür təxribat gözləmək mümkündür.**







Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter alıb. Buna misal olaraq 1980-ci ildən bu yana müxtəlif illərdə sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, hava nəqliyyatında, Bakı metropolitenində, sərnişin daşıyan dəniz bərəsində, mülki şəxslərə və hərbçilərə, mülkü və dövlət obyektlərinə qarşı törədilmiş terror aktlarını göstərmək olar.

Artıq illərdir bu kimi hadisələr ölkəmizdə baş vermir. Hər il qondarma erməni "soyqırımı" yaxınlaşdıqca bu kimi terror aktlarının və təxribatların baş verməməsi üçün təhlükəsizlik tədbirləri gücləndirilir, yeraltı avtomobil keçidlərində avtomobillərin baqajları yoxlanılır və s. Maraqlıdır, bəs insanların daha çox istifadə etdiyi nəqliyyat vasitəsi olan metrolarda təhlükəsizlik necə qorunur?

Bunu öyrənmək üçün metronun bir neçə stansiyasında olub müşahidə apardıq. İlk baş çəkdiyimiz məkan "Neftçilər" metrosu oldu. Burada polis əlində böyük çanta olan hər kəsi demək olar ki, yoxlayırdı. Düzdür, hərdən polislərin ağzı söhbətə qarışanda gözdən yayınıb keçən iri çantalı sərnişinlərdə olurdu. Müşahidə etdiyimiz sərxoş sərnişin kimi. Üstü başı nimdaş halda olan sərxoş sərnişin polisin diqqətindən yayınıb içəri daxil oldu.

**Məsələ orasındadır ki, aşa-aşa gedən sərxoş sərnişin kartını vurub çox rahatlıqla digər polisində diqqətindən yayındı və içəri daxil oldu.** İçəri bu cür şəxsin girdiyindən polisi xəbərdar etdikdən sonra sərnişin saxlanıldı və metrodan uzaqlaşdırıldı. Metro polisi şübhələndiyi hər kəsi yoxladığını, bu vaxta qədər də qeyri adi bir halla rastlaşmadığını dedi: "Əli yüklü olan hər kəsi detektorla yoxlayırıq. Hələ ki, elə bir hal olmayıb ki, kimsə yoxlanılmaqda imtina etsin və problem yaratsın".

Digər baş çəkdiyimiz məkan isə metronun "Xalqlar dostluğu" stansiyası oldu. Burada da metro polisi əlindəki detektorla çantaları yoxlayırdı. Elə sərnişinlər vardı ki, onların çantalarını açıb baxırdılar. Metronun "28 May" stansiyasının yeni girişində isə ümumiyyətlə sərnişinlər yoxlanılmırdı.

**Çıxardığımız ümumi nəticə bu oldu ki, metrolarda sərnişinlərin yoxlanılması istənilən səviyyədə deyil.** Bəzən diqqətsizlik dilənçi, sərxoş, çarşablı sərnişinlərin içəri girməsinə səbəb olur. Tamamilə qara çarşaba bürünən xanımlar da yoxlanılmadan buraxılırdı. Görünüri, təhlükəsizliyimizi etibar etdiyimiz metro polisləri çarşabdan üzü gözü görünməyən qadınları yoxlamağı etikadan kənar hesab edir. Bu cür qadınlar yalnız çantalı olarsa yoxlanılırdı. Amma unutmaq lazım deyil ki, terror aktları törədənlərin müəyyən qismi məhz bu cür qara çarşablılar olur.

**Metro istifadəçisi olan bir neçə sərnişinin də metronun təhlükəsizliyi ilə bağlı fikirlərini aldıq. Metro ilə hər gün işə gedib gəldiyini deyən Xəqani Rəsulov təhlükəsizliyindən əmin olduğunu dedi:** "Təhlükəsizlikdən razıyam. Girişdə hər kəsi dəqiqliklə yoxlayırlar".

Daimi metro istifadəçisi tələbə Aynur Quliyeva isə əksini düşündüyünü dedi: "Hərdən metroda dilənçi uşaqlar, sərxoş insanlarla rastlaşıram və bu məni çox narahat edir. Bir dəfə bir sərxoş kişi metroya minmişdi və ağzına gələni danışırdı. Bunlara nəzarət olmalıdır. Düzdür, bu cür hallar az-az baş verir. Amma çox istərdim ki, heç olmasın".

**Digər sərnişin Gülnar Əhmədova isə çarşablı qadınların metroya girişindən narahat olduğunu dedi:** "Hər gün televiziyalarda bu cür xanımların binaları, metro və ya avtobusu necə partlatdıqlarına dair xəbərləri görürük. Düzdür, bu hallar Suriyada və digər dövlətlərdə olur. Amma heç kim zəmanət verə bilməz ki, bu bizim ölkəmizdə baş verməyə bilər. Bizim ermənilər kimi alçaq düşmənlərimiz var. Mən haradan bilim ki, mənim qarşımda qaraya bürünüb oturan qadın çarşabının altında nəsə gizlətməyib. Onların da heç olmasa detektorla yoxlanıldıqdan sonra qatara buraxılmasını tələb edirəm".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Elan**

**Dövlət Miqrasiya Xidməti tərəfindən Kərimov Kərim Firəddin oğlunun adına verilmiş Müvəqqəti Yaşamaq Üçün İcazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Gəncədə yaşayış evini partlatdılar



**Aprelin 10-da səhər saatlarında Gəncədə partlayış baş verib. Kəpəz TV-nin verdiyi məlumata görə, hadisə saat 04 radələrində Rahib Məmmədov küçəsi, ev 26 ünvanında, Pərviz Hüseynova məxsus evdə qeydə alınıb.**

Kimliyi hələ istintaqa bilinməyən şəxs və ya şəxslər Pərviz Hüseynova məxsus evin pəncərəsini çöl tərəfdən qarşısına partlayıcı maddə yerləşdirərək güclü partlayış törədiblər. Hadisə nəticəsində xəsarət alan olmasa da, evin yataq otağına ziyan dəyib.

Ev sahibinin sözlərinə görə, partlayıcı maddənin içərisində müxtəlif ölçülü mismarların olması otaqdakı bütün əşyaları, mebeli, tavanı, qapını zədələyib. Hadisə vaxtı otaqda yatan iki nəfər xəsarət almayıb.

**Ev sahibəsi Fəranə Hüseynova hadisənin kim tərəfindən törədillməsi barədə heç bir təsəvvürü olmadığını bildirib:** "Gecə saat 4 idi. Yatırdıq. Birdən gurultulu səs çıxdı, ayıldıq ki, ev tüstüdür təmiz. Pəncərələr qırılmışdı, özümüzü təmiz itirdik. Vallah, heç kimlə elə ədavətimiz də yoxdur ki, belə bir hərəkət olunsun. Ancaq şikayətçiyik ki, tapılsın, cəzası verilsin, hər kimdilərsə..."

Hadisə şahidi Selyan Məmmədova bildirib ki, partlayış o qədər güclü olub ki, qonşuluqda yerləşən evlərə də zərər dəyib: "5-ə işləmiş bir də çığırdılar ki, ev partladı. Oğlum çıxdı küçəyə, o tərəfə -bu tərəfə qaçdı, ancaq heç kimi görə bilmədi. Qonşular hamısı çıxdılar çölə, onların da evini o günə qoyub, partlayış bizim də evin pəncərələrinin şüşələrini töküb".

Dərhal hadisə yerinə FHN-nin yerli qurumları və polis əməkdaşları cəlb olunsa da, yuxarıda qeyd etdiyimiz kimi, partlayışın kim tərəfindən və hansı məqsədlə törədildiyi hələ məlum deyil.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

* *Arı südü*
* *Mumiya*
* *Möhtəşəm ağ bal*
* *İssık-Kul balı*
* *Esparset balı*
* *Çayek balı*
* *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119

**Tel:** (012) 491-23-82; (051) 922-15-71




## "Nar" tərəfindən kitab həvəskarları üçün elan edilmiş onlayn müsabiqə başa çatdı

### "Ali & Nino" kitab mağazasında keçirilən tədbirdə #NarlaOxu"Twitter" müsabiqəsinin qalibləri mükafatlandırıldı

**Kitaba olan marağı artırmaq, kitabsevərləri dəstəkləmək üçün "Nar" tərəfindən "Ali & Nino" kitab mağazaları şəbəkəsi ilə birlikdə davam edən "Ürəklə al, çox oxu" kampaniyası çərçivəsində keçirilmiş #NarlaOxu"Twitter" müsabiqəsi başa çatdı. Qeyd edək ki, "Twitter" istifadəçiləri oxumaq istədikləri və ya "Nar"-ın kampaniyası çərçivəsində aldıqları kitablar haqqında tvitlər yazaraq müsabiqədə iştirak edirdilər.**

nar
Gəlin birlikdə böyüyək

**Beləliklə, müsabiqə müddətində ən çox retvit toplamış istifadəçilər arasından seçilmiş qaliblərə dəyərli mükafatlar verildi. Müsabiqənin qalibi Orucova Günel Məzahir qızı (@Oruc_) və Cəfərov Rauf Seyid oğluna(@raufjafarov) "Amazon Kindle Voyage" təqdim edildi. 3-cü yerin sahibi Əliyeva Aynur Yaşar qızına (@dreaminooo) isə "Amazon Paperwhite" verildi. "Nar" kitaba olan həvəsi artırmaq üçün daha iki nəfərə hədiyyə verərək, retvitlər əsasında 4-cü və 5-ci yerləri tutan Bağırov Coşqun Nazim oğluna (@bagirovich) və məşhur aparıcı DJ Fatehə (@DJ_Fateh) "Ali & Nino" dükanlar şəbəkəsində keçərli olan 100 AZN dəyərində hədiyyə kuponu təqdim etdi. Qeyd edək ki, DJ Fateh qazandığı kuponu öz səhifəsində keçirəcəyi başqa bir müsabiqənin izləyicilər arasındakı qalibə təqdim edəcəyini bildirib.**

YENİ MÜSAVAT
N 76 (6104) 11 aprel 2015

**Jurnalist praktikasında bir gənc jurnalist xanımdan aldığım yazını redaktə edərkən ciddi polemikaya girməli oldum. Siqaret çəkməyin fəsadından bəhs edən yazıda müəllif siqareti pisləyirdi kimi, ölkədə siqaret çəkən qadınlara olan münasibəti də pisləyirdi, "niyə kişilərə siqareti açıq-aşkar çəkmək olar, qadınlarasa yox" sualını ortaya qoyurdu. Əlbəttə, kişilərin siqaret çəkməsi bəyənilən deyil, cəmiyyət bunu eyni dərəcədə pisləməli, qadınların da bu asılılığını dəstəkləməməlidir.**



**İsmayıl İSMAYILOV**

# Zorakılıq yox, sevgi paylaşaq

Azərbaycan qadınları hətta haqlı ictimai qınağı da bəzən ayrı-seçkilik kimi qəbul edirlər. Gənc xanımlar "ayrı-seçkilik halları ilə tez-tez rastlaşırsınız" sualına o dəqiqə "bəli, tez-tez. Evə gec gələndə valideynlərim narahat olur, məni axtarırlar. Qardaşıma isə gecikmək olar" cavabını verirlər. Növbəti sual isə onları çətinə salır: "Bəlkə bu, ayrı-seçkilik yox, sadəcə övladı mümkün təhlükədən qorumaq istəyindən doğur? Axı, böyük şəhərdə hər cür insan var, müxtəlif hadisə ola bilər". Adətən çoxu bununla razılaşır, həqiqi ayrı-seçkilik hallarını isə söyləməkdə çətinlik çəkirlər.

Qadın-kişi münasibətlərini doğuran səbəblər mətbuatda az işıqlandırılır, adətən qadın məsələləri ilə məşğul olan dövlət qurumları, ya da bu istiqamətdə çalışan QHT-lərin nümayəndələri açıqlamalarında qadınlara qarşı olan zorakılıqdan danışarlar. Problemin kökünü görürükmü?

## Modellər: partnyor və dominant-asılı

Böyük mənada qadın-kişi münasibətlərinin 2 modeli var: partnyor və dominant-asılı. Onların da müxtəlif formaları var, qarışıq modellər də çoxdur.

Qərbdə son 100 ilə gender münasibətlərinin orta nöqtədə bərabərləşməsi üçün çox iş görülüb. Əgər Böyük Britaniya kimi 800 il parlament ənənəsi olan ölkədə qadınların seçkiyə qatılması yalnız 1928-ci ildə mümkün olubsa, hazırda Avropada qadın üçün böyük imkanlar yaradılıb. Amma Qərb ailəsində partnyor münasibətlər tam mənada qurulubmu? Yox, münasibətlər bərabərləşib və artıq vektor qadın dominantlığına tərəf artıb. Hətta Avropa ölkələrində belə bir ifadə var: "İtin hüququ kişinin hüququndan çoxdur".

Qadın dominantlığına söykənən modelin də qüsurları az deyil. Məsələn, ABŞ-da qadının ictimai həyatda rolunun yüksəlməsi, vəzifə tutması, müstəqilliyinin artması əks effekt doğurub. Artıq kişinin özünə qadın axtarmasına ehtiyac yoxdur, çünki qadın özü seçim edir, yəni mədəniyyəti inkişaf etdirən, elmi irəli aparan, şəhərləri quran kişilər bu funksiyaları əldən veriblər. Passiv mövqeyə keçmələri qadının yükünü birə on artırıb. Kişi ailə qurmaq, ev tikmək, vəzifə tutmaq istəmir. ABŞ qadınları təəssüflə kişinin məsuliyyətdən qaçdığını etiraf edirlər. Hətta Hollivud filmlərində tez-tez rast gələnən səhnə məhz kişinin restoranda artıq 3-4 il birgə yaşadığı qadına evlilik təklifidir. Hər dəfə eyni mənzərənin şahidi oluruq: qadının sevinci yerə-göyə sığmır. Bu ən azı qəribə görünür. Yəni ABŞ-da ərə getmək bu qədərmi çətindir? Çətindir, çünki Kişi belə düşünür: illərlə özüm üçün yaşamışam, az-çox pulum, işim, vəzifəm var. İndi kimsə gəlib bütün bunlara sahib çıxacaq, mən də olacam "bir həsir, bir də məmmədnəsir". Nikahdan yayınmaq adiləşib.

Skandinaviya ölkələri qadınların tam dominant məkanına çevrilib. İsveç, Norveçdə pozğun qadınların xidmətindən yararlanan kişilərə cinayət işi açılır. Özü də qadına intim xidmət göstərmək qadağan deyil, heç bir problem yoxdur, amma kişi cəzalanır. Bu feminist ölkələrdə mütləq gender balansı gözləmək tələbi də var, yəni biznes qurursansa, yaradı-yaramadı mütləq işçilərin sırasında qadın olmalıdır, özü də söylənilən nisbətdə.

Burada artıq partnyorluq münasibətlərinin qadınların dominantlığı ilə əvəzlənməsi açıq-aydındır.

Dominant-asılı münasibətlərə daha çox Şərq ölkələrində rast gəlinir. Özü də nədənsə məhz kişilərin dominantlığı nəzərdə tutulur.

**Haşiyə:** Bu yaxınlarda İrana neçə dəfə səfər etmiş xanımdan bir söz eşitdim. Dedi, iranlı kişi çox yazıq görünür, heç səs çıxmır. Elə işləyib evə pul gətirir. Özü də xanımı bir şey istəsə, almalıdır. Hər toya mütləq təzə paltar, bər-bəzək alınır. Kişinin haqqı nədir almasın?

Ola bilər, Şərq ölkələrində kişilərin siyasət, ictimai həyat, təhsil, səhiyyə sahələrində dominantlığı duyulur. Amma eyni şeyin ailədə də olduğunu söyləmək olmaz. Qədim mədəniyyət və ənənələri olan müsəlman ölkələrində qadının imkanları və rolu çox böyükdür. Adətən qadının hüquqları məhz kasıb, imkansız ölkələrdə daha çox pozulur.

İranda qadının seçmək-seçilmək, təhsil almaq hüququ var. Hətta ali təhsil almaq işində iranlı xanımlar kişiləri sayca üstələyirlər. Ailədə onların dominantlığı açıq-aşkardır. Əlbəttə, bəzi sərt cəza növləri var, alkoqollu içkilərdən istifadəyə, zinaya görə. Di gəl, bu qadağalar həm də kişilərə aiddir. Ərəb ölkəsi Qətərdə yerli qadın demək olar ev işlərindən azaddır. Ölkə varlıdır, bir çox evlərdə filippinli qadınlar çalışır, ərəb qadını yalnız təhsil almaq, bəzənmək haqda düşünür. Çox da özlərini rahat hiss edirlər.

Varlı ərəb şeyxlərindən biri maraqlı fikir bildirib: "bizim qadınlar maşın sürməyi, kompüteri, paltaryuyanı idarə etməyi bacarırlar, bütün bunlar bir gün olmasa, onda nə edəcəyik?"

Maddi imkanları artan ölkələrin hamısında qadınlara verilən imtiyazların siyahısı genişlənir. Pis vəziyyət məhz kasıb ölkələrdədir. Əfqanıstan, Nigeriya, Tunisdə yaşamaq uğrunda mübarizə gedir, burada nəyisə dəyişmək olduqca çətindir.

Maraqlı bir faktı da burada göstərmək olar. Bütün dünyanın pislədiyi, diktator adlandırdığı Müəmmar Qəzzafi neft gəlirlərinin bir hissəsini təhsilə və ucuz evlərin tikintisinə yönəltmişdi. Yəni hər hansı ailə qız uşağını təhsildən yayındırmaq istəsəydi, mütləq cəzalanacaqdı.

## Nə Qərb modelidir, nə Şərq

Azərbaycanda cinslərin münasibəti qəribə bir tərzdə tənzimlənir. Bu nə Qərb modelidir, nə Şərq. Əlbəttə mental ənənələr ölkədə güclüdür, qadınlara hər yerdə müvafiq hörmət göstərilir, nəqliyyatda yer verilir, dükanda növbəsiz xidmət edilir. Hər hansı avtobusda əyləşən insanların nisbəti bunu aydın sübut edir. Arxadakı 5-6 yeri çıxsaq, qalan yerlərdə adətən uşaq və qadınlar əyləşir.

Bununla yanaşı qadına qarşı bir anlaşılmayan qəddarlıq, sərtlik də var. Məişət zorakılığı, dəhşətli qətl hadisələri baş alıb gedir. Səbəbi nədir?

Birincisi, hələ də dağılmış sovet imperiyasının təsirindən qurtula bilməmişik. Məişət zorakılığının kökü həmin dövrə gedib çıxır. Bu dövlət yarandığı ilk gündən qan, zorakılıq, ölüm üstündə qərarlaşmışdı. Çar Rusiyasını yerlə-yeksan edib yeni münasibətlər formalaşdıran bolşeviklər milyonlarla insanı qırğına verdilər. Əlbəttə Azərbaycan bu proseslərdən kənarda qala bilməzdi, normal vəziyyətə qayıtmaq üçün illər lazımdır. Nə vaxtsa baş vermiş zorakılığın izləri hələ də təhtəlşüurda özünü büruzə verir.

Digər səbəblərdən biri təlim-tərbiyə sistemində buraxılan səhvlərdir. Çox hallarda nə valideynlər şəxsi nümunə ilə, nə bağça, nə orta, nə də ali məktəb insanları gələcək həyata hazırlamır. "Qadın-kişi münasibətləri necə olmalıdır, qarşı cinsə necə yanaşmalıyıq" suallarının cavabları açıq qalır. Hazırda cinslərin münasibət və davranışında qarışıqlıq var. Bu da sonda zorakılığı artıran səbəblərdən biridir.

Nəhayət, zorakılığa birbaşa təsir edən ən ciddi faktor mətbuatdır. Müstəqil Azərbaycanın mətbuatı, deyəsən, məhz bu qorxulu, kriminal, heç bir mənəvi platformaya söykənməyən yolu seçib. İllərdir telekanallarda gedən "Bu şəhərdə", "Planet parni iz Baku", "Zarafatsız" kimi layihələr gənc nəslin gender münasibətlərini formalaşdırır. Qadın paltarı geymiş kişilər ekrandan gənclərə ağıl dərsi verir, hər cür aşağı səviyyəli zarafatlar, hərəkətlər, "Az donuz qızı donuz, sən nə vaxtdan şalvar geyinməyə başlamısan?! Bu gün şalvar geyinirsən , sabah da müğənniliy eliyəssən eləmi???", "Ruslan kimdi azz, kişinin gül kimi adi var: - T r u s i k..." ifadələri müasir Azərbaycanın qadın-kişi münasibətlərini formalaşdırır.

Kriminal süjetlər isə min illərlə formalaşmış münasibətləri darmadağın edir. Ailədaxili zorakılıq halları hər gün efirdən tamaşaçıya dəfələrlə göstərilir. Nə qədər göstərilirsə, bir o qədər də kriminal artır. Zəncirvarı reaksiyadır, bir dəfə işə düşdüsə, dayanmaz.

Çap mediası, radiolar, internet portalları zorakılıq və kriminala xüsusi diqqət yetirirlər. Azərbaycan mediasında mədəniyyət müxbirinə iş tapmaq çox çətin, kriminaldan yazan jurnalistə isə çox asandır. Redaksiyalar belə müxbirləri, hətta xarici mənbələrdən kriminal xəbərləri çevirən tərcüməçiləri formalaşdırır. Bir səhifəni kriminala həsr etməyən qəzet tapmaq çox çətindir, zorakılıq da daha çox ailədaxili problemlərə bağlıdır.

"Qadın sürücü polisin ağacından keçdi", "Qadın sürücü yol polisinə xəsarət yetirdi" kimi xəbər başlıqlarının əslində yolverilməz olduğunu çox redaktor yəqin bilmir. Bu seksizm termini ilə bağlıdır, yəni cinsi mənsubiyyətinə görə ayrı-seçkilik. Xəbərdə hətta qadın əvəzinə kişi sözü belə yazılsaydı, bu yenə də yolverilməz olardı. Sürücü elə sürücüdür, onun kişi və ya qadın olmasının nə əhəmiyyəti var? Mətbuatda çətin "kişi sürücü" sözünü kimsə başlığa çıxarda.

"Direktorun oğlu 13 yaşlı qızı əxlaqsızlığa vadar etdi", "7 yaşlı ögey qızını zorlayan ata intihar etdi", "Bakıda yataqxanada baş vermiş dəhşətli qətlin tükürpərdici təfərrüatları" - bu başlıqlar onsuz da çətin durumda olan qadın-kişi münasibətlərini korlayır, onları zorakılıq, ölüm müstəvisinə keçirir.

Gender məsələlərini başlı-başına buraxmaq olmaz. Nə təlim-tərbiyə sistemində, nə də mətbuatda. Müasir şəraitə uyğun yeni münasibət formaları axtarmalı, yeni qanunlar qəbul etməliyik. Zorakılıq, kriminaldan uzaq durmalıyıq, çünki bu, epidemiya kimidir, yayıldısa, qarşısını almaq olmur. Hətta kişinin qadına əl qaldırdığını əks etdirən "Zorakılığa yox deyək" kimi plakatlar da zorakılığın əleyhinə yox, xeyrinə çalışır.

## Zorakılıq yox, sevgi paylaşaq...

Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiyanın icra etdiyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyələşdirdiyi Counterpart İnternational-ın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən "CEDAW ƏMƏLDƏ" layihəsi üçün hazırlanıb.

## Tərcümeyi-hal

***İsmayıl İsmayılov 1967-ci ildə Bakıda anadan olub. 1984-cü ildə paytaxtın 132 saylı orta məktəbini, 1991-ci ildə isə Rusiyada Rostov Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Hazırda Mediaforum.az saytının redaktorudur.***

YENİ MÜSAVAT
Son səhifə
*N 76 (6103) 11 aprel 2015*

# Duz ölüm gətirdi

Amerikada yaşayan 27 yaşlı qadın oğlunu duzla öldürdüyü üçün həbs edilib. Lacey Spears adlı qadın 5 yaşlı oğluna yüksək miqdarda duz yedizdirib. Əqli problemləri olan qadın evdə olarkən hər gün oğluna zorla duz yedizdirirmiş. Məlumatlara görə, Lacey hər zaman diqqətin onun üzərində olmasını istəyirmiş. Həkimlər bunun psixoloji xəstəlik olduğunu deyiblər. Uşaq bir müddət qulaq infeksiyası, yüksək qızdırma, mədə ağrısı kimi xəstəliklərə görə uzun müddət müalicə edilib. Analizlər nəticəsində məlum olub ki, uşağın bədənindəki bütün ağrılar duz yeməkdən qaynaqlanırmış. Garnette adlı uşaq sonuncu dəfə xəstəxanada yatarkən anası yeməyinə yüksək miqdarda duz atıb və onun ölümünə səbəb olub.



Məhkəmə qarşısına çıxarılan qadın 20 il müddətinə azadlıqdan məhrum edilib.



## Dünyanın ən bahalı telefonları

Dizayner "Stuart Hughes"in 9 həftəsini alan bu iPhone 5 qızıl və almazlarla bəzədilib. Qiyməti isə 15 milyon dollardır.

500 almazdan hazırlanan iPhone 4 8,5 milyon dollara satılır.

Piter Alloisonun hazırladığı özəl iPhone 3G-nin almaz qaş var, qiyməti 2.41 milyon dolardır.

"Ulysse Nardin Çairman" markalı bu telefonun üzərində 3 min almaz var. Buna görə də qiyməti 130 min dollardır.

"Black Insane" adlı bu telefon daş-qaşlara görə 120 min dollara satışa çıxarılıb.

"Gresso Luxor Las Vegas Jackpot"un arxa hissəsi dünyanın ən bahalı ağacından, 45.5 karatlıq qara almazdan hazırlanıb. Qiyməti 1 milyon dollardır.

"GoldVish Le Million" 18 karat ağ qızıldan və 1800 almazdan ibarətdir. Qiyməti 1,5 milyon dollardır.

"Goldstriker iPhone 3GS Supreme" 3 milyon dollarlıq qiyməti ilə ən bahalı telefondur.

"King's Button iPhone 3GS" əsas düyməsi 6.6 karat almazdandır.

# 25 min nəfər facebooku məhkəməyə verdi

Avstriyada 25 min internet istifadəçisi "facebook" sosial şəbəkəsini məhkəməyə verib. İstifadəçilər "facebook" rəhbərliyini profil sahiblərinə məxsus şəxsi məlumatları toplayaraq başqa tərəfə ötürməkdə ittiham edib. İstifadəçilər bildiriblər ki, "facebook"un bu hərəkəti məxfilik qanunlarına ziddir. "On-line məlumatın qorunması və məxfi saxlanması vacib məsələdir. Mənim "facebook", "WatsApp", "Aplle" və "Google"dən istifadə etməkdən başqa seçimim yoxdur. Çünki bu şirkətlər inhisarçılardır. Təəssüf ki, mən yeganə çıxış yolu olaraq məhkəmədə hüquqlarımı tələb etmək məcburiyyətində qalmışam. Bunu təkcə özüm üçün deyil, hüquqları pozulan hər bir istifadəçi üçün edirəm" deyə, Maks Şrems bildirib. İddiaçılar məhkəməni qazanacaqları təqdirdə "facebook" rəhbərliyi onların hər birinə 500 avro məbləğində təzminat ödəməli olacaq. Bu isə, ümumilikdə, 12.5 milyon avroya yaxın məbləğ edir.






## Çin Everesti deşir

Çin dünyanın ən yüksək dağı olan Everest zirvəsinin altından 540 kilometr uzunluğunda tunel açacaq.

Yerli mətbuatın yazdığına görə, Çin rəhbərliyi ölkəni qonşu Nepal ilə birləşdirmək üzrə 540 kilometrlik sürətli qatar xətti inşa edəcək. Bildirilir ki, bunun üçün də Everesti deşmək lazımdır.

2020-ci ildə tamamlanması nəzərdə tutulan dəmiryolu xətti, Çinlilərin "Comolonqma" adını verdiyi 8882 metrlik Everest dağının altından keçəcək. Bu çərçivədə Everestə uzunluğu hələ dəqiqləşdirilməyən bir tunel açılacaq.

Layihənin memarlarından olan Vang Mengşu bildirib ki, normal şərtlərdə 300 kilometrə qədər çıxan yüksək sürətli qatarın sürəti, Everestdəki yükseklik problemləri səbəbi ilə saatda 120 kilometri keçə bilməyəcək. Nepalın tələbi ilə həyata keçirildiyi açıqlanan layihənin Çin tərəfdə artıq başlandığı açıqlanıb.




**QOÇ** - Hər şeydən əvvəl maliyyə məsələləri barədə düşünün. Hətta buna görə digər planlarınızı təxirə də salmaq olar. Günün ikinci yarısında ciddi sövdələşmələrdə iştirakınız gözlənilir.

**BUĞA** - Bəxtinizdə uğurlu bir gün durur. Təzə xəbər eşidəcəyinizə təminat verən ulduzlar maddi durumunuzda irəlilyişlərin olacağını da istisna etmir. Kiminsə xətrinə dəyməyə çalışmayın.

**ƏKİZLƏR** - Bu şıltaq təqvimdə hər bir məsələyə ciddi şəkildə yanaşmalısınız. Hər hansı zarafat və ya qeyri-səmimilik vəziyyəti poza bilər. Başlıca vəzifəniz informasiya toplamaq olmalıdır.

**XƏRÇƏNG** - Çıxardığınız qərarlara məsuliyyətlə yanaşın. Əgər öz vəzifələrinizi dərk etsəniz, uğurlara yaxın olacaqsınız. İş yerində isə həmkarlarınızla münasibətləri mülayimləşdirməyə çalışın.

**ŞİR** - Əsas gücünüzü fəaliyyət prinsipinə yönəldin. Aldığınız təklifləri dönə-dönə nəzərdən keçirin. Bütün görüş və danışıqlarda təşəbbüskarlığı əldən verməyin. Qarşınızda yeniliklər durur.

**QIZ** - Əzmkarlığınızı artırmaqla nüfuz dairənizi genişləndirə bilərsiniz. Bu arada uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlayın. Maddi durumunuz imkan versə, səfərə də çıxmaq olar.

**TƏRƏZİ** - Bütün vacib planlarınızı təxirə salın. Çünki bu təqvim qlobal məsələlərin həlli üçün uğurlu deyil. Üstəlik, axşama yaxın mübahisəli situasiyalara da cəlb oluna bilərsiniz.

**ƏQRƏB** - Marsın aktivliyi sizə mütləq təsir edəcək. Ünsiyyətdə olduğunuz insanların əksəriyyətinə qarşı münasibətləri ılıqlaşdırmağa səy göstərin. Xoş təsadüflər və qonaqlıqlar da gözlənilir.

**OXATAN** - Günün ümumi mənzərəsi qənaətbəxşdir. Çox iş görmək olar. Kobudluq göstərməyin. Hər addımı vaxtında atmağa çalışın. Təzə xəbər və şəxsi büdcənizdə artım da gözlənilir.

**OĞLAQ** - Risk etməkdən qorxmayın. Əmin olun ki, qarşınızda duran maneələri yalnız cəsarətli olmaqla aradan qaldıra bilərsiniz. Sağlamlığınıza qayğı göstərməyi də unutmayın. Axşam tez yatın.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvim ümumi məziyyətlərinə görə ürəyinizcə olsa da, ötən dövrün sıxıntıları bu ovqata müəyyən gərginlik qatacaq. Əsas enerjinizi sevgiyə ayırmaqla rahatlıq tapa bilərsiniz.

**BALIQLAR** - Üzərinizə götürdüyünüz öhdəlikləri yerinə yetirmək üçün mütləq kimdənsə dəstək almalısınız. Odur ki, ümid bağladığınız hər kəsə üz tutmağınız məsləhətdir. Hər hansı risk yolverilməzdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Taksidən 1 torba qızıl tapdı



Çində bir taksi sürücüsü bir müştərinin unutduğu 300 qızıl boyunbağını sahibinin tapılması üçün çalışdığı şirkətə təslim edib. "Southern Metropolis News" qəzetində yer alan xəbərə görə, Çinin Şenzhe şəhərində bir taksi sürücüsü maşının ön oturacağında qızılla dolu olan bir çanta tapıb. Taksiçi içində ümumi çəkisi 1 kiloqramdan çox olan, 300 ədəd qızıl boyunbağını sahibinin tapılması üçün çalışdığı şirkətin rəhbərliyinə təslim edib. Polis qızılların sahibini axtarır. Qızılların ümumi dəyərinin 250 min yuan, təxminən 41 min dollar olduğu məlum olub.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300